

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 11 (802) ▪ 16 mart 2016 | www.vergiler.az | Qiyməti: 55 qəp.


# Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Respublikasına işgüzar səfəri

### *Dövlətimizin başçısı Ankarada Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının V iclasında iştirak edib*



Martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasına rəsmi səfər edib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi qarşılayıb. Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olub. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə edilib, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının əlaqələrimizin daha da dərinləşməsi işinə xidmət etdiyi vurğulanıb. Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparılıb.

Sonra hər iki prezidentin iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının V iclası keçirilib. Tədbirdə nəqliyyat, enerji, kommunikasiya, müdafiə sənayesi və hərbi əməkdaşlıq, iqtisadi-ticarət, investisiya və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsinə dair müzakirələr aparılıb. Daha sonra Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər. Türkiyə Prezidenti Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının V iclasın keçirilməsində təşəbbüskarlığına görə, Azərbaycan Prezidentinə və xalqına təşəkkür edib. Qeyd edib ki, bu addım Azərbaycan və Türkiyənin terrora qarşı birgə olduğunu göstərmək baxımından da çox önəmlidir: «Mərhum Heydər Əliyevin dediyi kimi, bunu «Bir millət, iki dövlət»in təzahürü olduğunu bir daha ifadə edirəm. Azərbaycan qara günün dostu olduğunu göstərdi. Buradakı mesajın hər kəs tərəfindən diqqətə alınmasını tövsiyə edirəm. Hər kəs bu qardaşlıq mesajından dərsini almalıdır».

Rəcəb Tayyib Ərdoğan bildirib ki, dost və qardaş ölkələrin də dəstəyi ilə Türkiyə bu sıxıntıları arxada qoyacaq. Qeyd edib ki, Türkiyə ilə Azərbaycan arasındakı Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasları 1 il Azərbaycanda, 1 il Türkiyədə keçirilməklə davam edəcək: «Qarşıdakı dövrdə yenə bir araya gələcəyik. İstanbulda İslam Əməkdaşlıq Təşkilatının toplantısı olacaq, o iclasda yenə görüşəcəyik. Aprelin 25-26-da mədəniyyətlərarası dialoqla bağlı tədbirlə əlaqədar Bakıda olacağam. Vaşinqtonda nüvə sammitində də bir araya gələcəyik».

Türkiyə Prezidenti hər iki ölkə arasında nəqliyyat, enerji, kommunikasiya, müdafiə sənayesi və hərbi əməkdaşlıq, iqtisadi sahələrdə əlaqələrin davam etdiriləcəyini, qarşılıqlı sərmayələrin həcminin 5 il ərzində 20 milyard dollara çatdırılmasının planlaşdırıldığını xatırladıb.

Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış edərək Ankarada terror aktı nəticəsində ölənlərin yaxınlarına başsağlığı verdiyini bildirib. Qeyd edib ki, bu dəhşətli terror aktını qətiyyətlə qınayırıq və türk xalqının yanındayıq: «Birliyimiz əbədi, sarsılmazdır. Azərbaycan və Türkiyə yaxşı və ağır günlərdə daim bir-birinin yanındadır. Türkiyə xalqına qarşı törədilmiş terror aktlarının heç bir nəticəsi olmayacaq. Bu, Türkiyə dövlətini sarsıda bilməz, Türkiyə xalqının iradəsinə təsir edə bilməz, Türkiyəni haqq yolundan döndərə bilməz».

Dövlətimizin başçısı bildirib ki, Türkiyə hər zaman Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquqa uyğun həll edilməsinə dəstək verib: «Bu yaxınlarda hərbçilərimiz birgə təlimlər keçirib. Bu da çox yaxşı ənənədir. Biz Türkiyədən müxtəlif hərbi texnika və silah alırıq. Türkiyənin müdafiə sənayesi sahəsində uğurları Azərbaycanın da müdafiə qabiliyyətini gücləndirir».

Ölkələr arasında siyasi və iqtisadi əlaqələrin daha da gücləndiriləcəyini qeyd edən Prezident İlham Əliyev bildirib ki, enerji layihələri bizi daha da birləşdirir: «2012-ci ildə Türkiyə və Azərbaycan TANAP layihəsinə start verdi. Əgər biz o vaxt bu layihəyə start verməsəydik, bu gün «Cənub Qaz Layihəsi» də reallaşa bilməzdi. Bu dəhlizin icrasında Türkiyə və Azərbaycan aparıcı rol oynayır. Biz çalışacağıq ki, böyük transmilli, böyük maliyyə vəsaiti tələb edən layihəni vaxtında icra edək və əminəm ki, iki ildən sonra biz TANAP layihəsinin açılışını qeyd edəcəyik».

# «Çoxqütblü dünyaya doğru» mövzusunda IV Qlobal Bakı Forumu

*Martın 10-da Azərbaycanın paytaxtında «Çoxqütblü dünyaya doğru» mövzusunda IV Qlobal Bakı Forumunun rəsmi açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, bir sıra ölkələrin dövlət və hökumət başçıları açılış mərasimində iştirak ediblər.*




Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunda bu dəfə münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edilib. Albaniya, Monteneqro, Bolqarıstan, Gürcüstan prezidentlərinin də qatıldığı Forumda 27 sabiq prezident və 23 sabiq baş nazir də daxil olmaqla, 53 ölkədən 300-dən çox nümayəndə iştirak edib.

Forumda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu beynəlxalq tədbirin yaxşı ənənəyə çevrildiyini, dünyada sülh və təhlükəsizliyin möhkəmlənməsinə öz töhfəsinin verdiyini diqqətə çatdırıb. Dövlətimizin başçısı qeyd edib ki, IV Qlobal Bakı Forumunun əsas məqsədlərindən biri bu məsələlərin müzakirəsidir: «Ərazimizin 20 faizinin işğalı hələ də davam etməkdədir. Beynəlxalq təşkilatlar, xüsusilə də BMT və onun Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən çoxsaylı qətnamələr qəbul etmişdir. Təəssüf ki, bu qətnamələr həyata keçirilməmişdir. Düşünürəm ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının mexanizmi məsələsi xüsusi mövzu kimi müzakirə edilməlidir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saat və ya gün içərisində icra edilir. Bizə gəldikdə isə, artıq iyirmi il keçir. Bu, siyasi iradənin, xüsusilə də həmin qətnamələri qəbul edən dövlətlərin siyasi iradəsinin olmamasının təzahürüdür».

Prezident İlham Əliyev müxtəlif etnik köklərə, dinlərə malik insanların əsrlər boyu Azərbaycanda sülh, əmin-amanlıq şəraitində yaşadığını, multikulturalizm və dini dözümlülüyün ölkəmizdə dövlət siyasəti olduğunu vurğulayıb: «Azərbaycanın bu sahədəki təcrübəsi aparıcı beynəlxalq təşkilatlar və beynəlxalq birlik tərəfindən yüksək qiymətləndirilir. Bu, multikulturalizmin yaşadığını, onun gələcəyinin olmasını sübut edir, sadəcə siyasətçilər, ictimai rəyə təsir etmək iqtidarında olanlar, o cümlədən media nümayəndələri daha məsuliyyətli olmalıdırlar. Hesab edirəm ki, bu məsələdə medianın rolu daha müsbət olmalıdır. Təəssüf ki, bir çox hallarda biz xəbərlərdə qarşıdurma, qaçqın böhranı və bunlarla bağlı kadrlar görürük. Bu yanaşma yalnız təcridolunmaya gətirir. Biz buna imkan verə bilmərik. Çünki qeyd etdiyim kimi, biz bir-birimizlə bağlıyıq və eyni planetdə yaşayırıq. Artıq şahid olduğumuz kimi, Avropa ilə Yaxın Şərq arasındakı məsafə o qədər də böyük deyil. Yəni məsafə insanların sığınacaq tapmaq və öz ailələrini xilas etmək naminə oralara üz tutmağın qarşısını almır. Odur ki, multikulturalizmin müsbət nümunələri üzərində dayanmaqla, bu dəyərlərin təşviqi hamımıza yardımçı olar. Çünki gələcəkdə heç bir ölkə və millət təcrid olunmuş vəziyyətdə yaşaya bilməz. Biz bir-birimizə bağlıyıq. Dünya ölkələrinin mütləq əksəriyyətinin əhalisi çoxmillətli və çoxdinlidir. Biz bununla fəxr etməliyik».

# Amerika Yəhudi Komitəsinin nümayəndə heyəti Bakıda olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də ölkəmizdə səfərdə olan Amerika Yəhudi Komitəsinin icraçı direktoru Devid Harrisin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı ilk dəfə Azərbaycana səfər edən heyət üzvlərinin ölkəmizlə yaxından tanış olmaları üçün yaxşı fürsət yaradacağına ümidvar olduğunu bildirib. Devid Harrisin ölkəmizin yaxın dostu olduğunu vurğulayan Prezident İlham Əliyev səfərin qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi baxımından da önəmini qeyd edib.

Devid Harris Azərbaycanın ABŞ üçün çox əhəmiyyətli bir ölkə olduğunu vurğulayıb, təmsil etdiyi təşkilatın Azərbaycan ilə ABŞ arasında əlaqələrin dərinləşdirilməsi üçün səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

# Nazirlər Kabineti hesabat verdi

Martın 15-də Azərbaycan Respublikası Milli Məclisinin iclasında, Konstitusiyaya uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci ildə fəaliyyətinə dair illik hesabatı dinlənilib. Milli Məclisin sədri Oqtay Əsədov ölkə iqtisadiyyatında əldə olunan uğurlar barədə danışaraq bildirib ki, ötən il dünya iqtisadiyyatında mənfi meyillər daha da güclənib, iqtisadi fəallıq xeyli zəifləyib. Təbii ki, bu meyillər Azərbaycandan da yan keçməyib. Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasət bu mənfi meyillərin ölkə iqtisadiyyatına təsirini minimuma endirib. Ümumi daxili məhsulun 1,1 faizlik artımı indiki şəraitdə məqbul hesab edilə bilər. Parlament sədri deyib ki, 2015-ci ildə ölkəmizdə infrastruktur layihələrinin həyata keçirilməsinə 16 milyard manata yaxın vəsait qoyulub. Bu vəsaitin 56 faizi daxili maliyyələşmə hesabına təmin olunub. Ötən il ölkənin neft sektoruna 7,1 milyard, qeyri-neft sektoruna 8,8 milyard manat investisiya ayrılıb. Bu, qeyri-neft sektorunda sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradıb. 2015-ci ildə Azərbaycan dünyanın 165 ölkəsi ilə ticarət əməliyyatları həyata keçirib. Bu dövriyyənin 47 faizi və ixracın 60 faizi Avropa İttifaqı dövlətlərinin payına düşür.

Sonra Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə Nazirlər Kabinetinin 2015-ci ildə fəaliyyəti barədə hesabatla çıxış edib. Baş nazir bildirib ki, keçən il qeyri-neft sənayesində artım 10 faiz təşkil edib. Əsas kapitala yönəldilən 16 milyard manat vəsaitin 55 faizindən çoxu qeyri-neft sektorunun payına düşüb. Orta aylıq əməkhaqqı 5 faiz, əhalinin gəlirləri 5,7 faiz artıb, illik inflyasiya isə 4 faiz səviyyəsində qeydə alınıb. Maliyyə və pul sektorlarındakı çətinliklərə baxmayaraq, hökumətin və Mərkəzi Bankın ümdə vəzifələrindən biri inflyasiyanın təkrəqəmli səviyyədə saxlanılması olub və bu təmin edilib. Bununla belə, qeyd olunmalıdır ki, 2015-ci ildə ölkəyə valyuta daxilolmalarının əhəmiyyətli dərəcədə azalması ilə əlaqədar makroiqtisadi tarazlığın və iqtisadiyyatın rəqabət qabiliyyətinin qorunması zərurəti manatın devalvasiyasını qaçılmaz edib.

Keçən il dövlət büdcəsinin gəlirlərinin icra səviyyəsi bütün sosial öhdəliklərin, əsas dövlət proqramlarının və prioritet kəsb edən layihələrin tam həcmdə maliyyələşdirilməsinə imkan verib.

Baş nazirin çıxışından sonra hesabat məruzəsi ətrafında müzakirələr aparılıb.

## BU NÖMRƏMİZDƏ


VERGİLƏR NAZİRLİYİ BÖLGƏLƏRDƏ GÖRÜŞLƏR KEÇİRİR — 2

VERGİ BƏYANNAMƏLƏRİ VƏ HESABATI VAXTINDA TƏQDİM EDİLMƏLİDİR — 3

AVTOMATLAŞDIRILMIŞ VERGİ İNFORMASİYA SİSTEMİNİN ƏHATƏ DAİRƏSİ GENİŞLƏNİR — 4

VERGİ ÖHDƏLİYİ — 5

# Vergi Apelyasiya Şurasında

Vergi ödəyicisi kimi Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentində qeydiyyatda olan hüquqi şəxs «Z-engineering» MMC-nin «Səyyar vergi yoxlaması» aktının, «Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb olunması haqqında» və «İnzibati şikayətin təmin edilməməsi haqqında» qərarların ləğv olunması barədə təkrar şikayətinə baxılıb.

Araşdırma zamanı müəyyən edilib ki, MMC-də 2012-ci ilin iyun ayından 2014-cü ilin dekabr ayı üzrə olan dövrü əhatə edən növbədənkənar səyyar vergi yoxlaması keçirilib və həmin yoxlama ilə ödəmə mənbəyində tutulan vergi üzrə əlavə vergi hesablanıb və maliyyə sanksiyası tətbiq edilib. Səyyar vergi yoxlaması zamanı əməkhaqqı məbləğinin və işçilərin sayının faktiki yerinə yetirilən işlərin həcminə uyğunluğunu araşdırmaq məqsədilə yoxlamaya Azərbaycan Respublikası Sənaye və Ticarət Palatasının «Azərekspertiza» Birliyinin mütəxəssisi cəlb edilib. Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələblərinə əsasən, 2012-ci və 2014-cü illər üzrə 1 nəfər işçi üçün illik iş vaxtı norması və təmir işləri sahəsində bir muzdlu işçiyə düşən orta aylıq əməkhaqqı məbləğinə uyğun əməkhaqqı hesablanıb və Vergi Məcəlləsinin 67-ci, 45-ci, 83.2-ci, 101-ci və 150.1.7-ci maddələrinə əsasən, əlavə olaraq, ödəmə mənbəyində tutulan vergi hesablanıb.

Apelyasiya Şurasının iclasında aparılan müzakirələr, vergi ödəyicisinin zərərlə işləməsi, təkrar şikayət üzrə işin faktiki halları, gətirilmiş dəlillər, eləcə də mütəxəssis rəyi ilə bağlı toplanmış materiallar və sübutlar əsas götürülməklə, Şuranın qərarı ilə «Z-engineering» MMC-nin təkrar şikayəti təmin olunub və Bakı Vergilər Departamentinin «Vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında» və «İnzibati şikayətin təmin edilməməsi haqqında» qərarları ləğv olunub.

# Vergilər Nazirliyinə daxil olan şikayətlərin sayı 50 faiz azalıb

2016-cı ilin fevral ayı ərzində vergi orqanlarına daxil olan 10176 müraciətdən 97,6%-i ərizə, 2,1%-i şikayət, 0,3%-i isə təklifdir. Müraciətlərin 55%-i müxtəlif arayışların alınması, 15,1%-i kameral vergi yoxlamaları, 7,3%-i vergi borcları, 2,2%-i səyyar vergi yoxlamaları, 1,8%-i vergidən yayınma və dividendlərin verilməsi, 0,9%-i operativ vergi nəzarəti (o cümlədən nağd hesablaşmaların aparılması qaydalarının pozulması), 0,4%-i qanunsuz sahibkarlıq fəaliyyəti, 0,3%-i vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti (hərəkətsizliyi), 0,2%-i korrupsiya hüquqpozmaları, qalanları isə digər məsələlərlə bağlı olub. Bütün müraciətlərə vaxtında baxılıb, onların 75,7%-i müsbət həll olunub.

Bu ilin fevral ayı ərzində vergi orqanlarına daxil olmuş şikayətlərin sayı ötən ilin fevral ayı ilə müqayisədə 46,3%, cari ilin yanvar ayı ilə müqayisədə isə 35,7% azalıb. Nazirliyin aparatına daxil olmuş şikayətlərin sayı da ötən ilin fevral ayı ilə müqayisədə 50,3%, cari ilin yanvar ayı ilə müqayisədə isə 40,3% az olub.

Hesabat dövründə vergi orqanları tərəfindən ümumilikdə 394 vətəndaş qəbul edilərək onlara mövcud qanunvericilik çərçivəsində lazımi köməklik göstərilib və ya müvafiq izahatlar verilib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin respublikanın şəhər və rayonlarında vətəndaşların qəbulu qrafikinə əsasən, 2016-cı il fevralın 25-də vergilər naziri Fazil Məmmədov Oğuz rayonunda vətəndaşları qəbul edib.

# Nağd əməliyyatlar vergidən yayınma risklərini artırır

Tütün məmulatlarının idxal və istehsal fəaliyyəti ilə məşğul olan şəxslər 2016-cı il yanvarın 1-dən əldə etdikləri malların sənədləşdirilməsində ciddi qayda-qanun yaratmalı olsalar da, bu sahədə problemlər hələ də qalmaqdadır.

Xatırladaq ki, 2016-cı il yanvarın 1-dən qüvvəyə minmiş «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi barədə» Qanunun əsas müddəalarından biri də aksiz markası ilə markalanmalı olan malların ölkə ərazisində dövriyyəsinin tənzimlənməsidir. Məcəllənin müvafiq maddəsinə əsasən, Azərbaycan ərazisində aksiz markası ilə markalanmalı olan malların alqı-satqısı zamanı hesablaşmalar nağdsız qaydada aparılmalıdır. Belə malların Azərbaycan ərazisində dövriyyəsinin tənzimlənməsi qaydalarının tələblərini pozan şəxslər İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar. İnzibati Xətalar Məcəlləsində edilmiş dəyişikliyə əsasən, tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markaları ilə markalanmalı olan malların nağd qaydada az miqdarda (50 manatadək) satılması, belə malların satış məqsədləri üçün nağd qaydada az miqdarda (50 manatadək) alınması inzibati xəta kimi müəyyən edilib.

Cinayət Məcəlləsində edilmiş dəyişikliklərə əsasən, tütün məmulatlarının pərakəndə satışı istisna olmaqla, aksiz markaları ilə markalanmalı olan malların nağd qaydada xeyli miqdarda (50 manatdan 1000 manatadək) satılmasına, belə malların satış məqsədləri üçün nağd qaydada xeyli miqdarda alınmasına görə cinayət məsuliyyəti müəyyən edilib.

Vergilər Nazirliyində 3-4 mart tarixlərində ticarət və istehsalat fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri ilə keçirilən görüşlərdə də əsas müzakirə mövzularından biri vergi uçotunun aparılmasında şəffaflığın təmin edilməsi olmuşdu. Tədbirdə vergi ödəyicilərinə şəffaflığın təmin edilməsi, uçotun düzgün aparılması, istehsal və ya idxal olunan malların sənədlərinin düzgün göstərilməsi barədə xəbərdarlıqlar edilmişdi.

Bu cür problemlərin ən çox təsadüf olunduğu sahələrdən biri də tütün məmulatlarının satışıdır. Müşahidələr göstərir ki, Bakının, digər şəhər və rayonların bəzi satış məntəqələrində siqaret məhsullarının idxal və istehsal sənədləri, qaimələr, digər lazım olan sənədlər yerli-yerində olmur. Bu isə həmin malların qaçaqmalçılıq yolu ilə gətirilməsi və satışının qeyri-qanuni həyata keçirilməsi deməkdir. Nəticədə tütün məmulatlarının satışının real dövriyyəsi gizlədilir və vergilər dövlət büdcəsindən yayındırılır. Sənədsiz mal qəbul etmək və satışa çıxarmaq sahibkarların özləri üçün məsuliyyət yaradan hal hesab edilir.

Buna görə də vergi qanunvericiliyinin tələblərinə məhəl qoymayan, qeyri-şəffaf işləyən sahibkarlar müvafiq cəza tədbirləri ilə üzləşməli olurlar. Vergilər Nazirliyinin vergi ödəyiciləri ilə apardığı təşviqat və maarifləndirmə işlərinin, keçirdiyi görüşlərin əsas mahiyyəti onları qanuna riayət etməyə, şəffaf işləməyə, sənədləşmə işlərinə ciddi diqqət yetirməyə dəvət etməkdir.

Bütün ölkələrdə nəzarət-kassa aparatlarından, POS-terminallardan geniş istifadə edilir. Nağdsız ödənişlə bağlı tələblər pərakəndə satış məntəqələrindən tütün məmulatı alan istehlakçılar üçün nəzərdə tutulmadığından onların kart almasına lüzum yoxdur.

Bu sahədə mövcud olan problemlərin aradan qaldırılması istiqamətində son günlər aparılan tədbirlərin məqsədi də vergi ödəyicilərini qanunlara əməl etməyə dəvət etməkdir. Vergilər Nazirliyinin tütün məmulatlarının idxalı və satışı ilə məşğul olan sahibkarlarla keçirdiyi görüşlərdə bu məsələ bir daha geniş müzakirə olunub, onlara lazımi tövsiyələr verilib, eyni zamanda bu istiqamətdə təbliğat-maarifləndirmə işləri gücləndirilib.

**Elbrus CƏFƏRLİ**

# Tvinninq layihələri çərçivəsində görüləcək işlər müzakirə olunub

Avropa Komissiyasının Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə Baş Direktorluğu tərəfindən Belçika Krallığının paytaxtı Brüssel şəhərində rezident tvinninq müşavirləri üçün 3-cü birgə əsas təlim kursu keçirilmişdir. Təlimdə tvinninq layihələri çərçivəsində görüləcək işlər, iştirakçı ölkələrin səlahiyyət və vəzifələri, layihənin icrası zamanı baş verə biləcək risklər haqqında təqdimatlar keçirilmiş və ətraflı müzakirələr aparılmışdır.

Tvinninq alətindən yararlanan bir sıra digər ölkələrin nümayəndələri ilə yanaşı, Azərbaycanın Vergilər və Kənd Təsərrüfatı nazirliklərindən tvinninq layihələri üzrə məsul şəxslər də tədbirdə iştirak etmişlər. Təlimdə Vergilər Nazirliyini Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəis müavini Məhəmməd Yunusov təmsil etmişdir.

# Son iki ayda Azərbaycanda xarici investisiyalı 114 müəssisə qeydiyyata alınıb

Son illər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə biznes və investisiya mühitinin yaxşılaşdırılması, biznesin qeydiyyatının sadələşdirilməsi, sahibkarlara verilən dövlət dəstəyi və investorların maraqlarının müdafiəsinin təmin edilməsi sahəsində aparılan fəaliyyətlər nəticəsində iş adamlarının bu sahəyə marağı artmaqdadır. Vergilər Nazirliyinin vergi ödəyicilərinin qeydiyyatı ilə bağlı informasiya bazasının martın 11-nə olan məlumatlarına əsasən, ölkəmizdə cari ilin əvvəlindən 25508 vergi ödəyicisi qeydiyyata alınıb. Onlardan 23828-i fiziki şəxs, 1680-i hüquqi şəxs, o cümlədən 114-ü xarici investisiyalı müəssisədir.

Qeyri-neft sektorunda fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin maraq dairəsi də genişlənib. Onları cəlb edən sənaye, tikinti, nəqliyyat kimi sahələr sırasına turizm, xidmət və ticarət də əlavə olunub. Ölkəmizin biznes sektoruna daxil olan ölkələrin müxtəlifliyi də artıb. Məsələn, yeni qeydiyyata alınmış müəssisələrdən kartoqrafiya fəaliyyəti göstərən «AİRBUS Ds Geo Sa» şirkəti Fransanı, neft və təbii qaz sahəsində fəaliyyət göstərən «Qinterra Technologies AS» və «EPİ limited» şirkətləri Norveç Krallığını, kommersiya fəaliyyəti və idarəetmə sahəsində ixtisaslaşan «Sparkassen Advisory Services» MMC Almaniyanı, mühəndis avadanlıqlarının quraşdırılması ilə məşğul olan «General Engineering Services and Supply Company LP» Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığını, bazar konyunkturasının tədqiqi və ictimai rəyin öyrənilməsi ilə məşğul olan «Trea International Group, INC» şirkəti Amerika Birləşmiş Ştatlarını, nəqliyyat sahəsində ixtisaslaşmış «SKYBUS» MMC Estoniyanı, «United Alliance Group LTD» şirkəti Birləşmiş Ərəb Əmirliklərini, «Vega International Car Transport & Logistic-Trading Gesellschaft» şirkəti Avstriyanı, «DB International GMBH» şirkəti Almaniyanı, tikinti sektorunda çalışan «LAB TEC» MMC İran İslam Respublikasını, turizm xidmətləri göstərən «Kroun Konsaltinq» şirkəti Ukraynanı, rezin məmulatların istehsalı ilə məşğul olan «Coşkun Kauçuk» MMC isə Türkiyəni təmsil edir.

Xarici investisiyaların ölkəmizə yönəlməsi böyük maliyyə imkanlarına malik iri şirkətlərin sayının artmasına, onların iqtisadiyyata sərmayə qoyuluşlarının güclənməsinə və özəl sektorun daha da inkişafına yol açır.

# Vergilər Nazirliyi bölgələrdə görüşlər keçirir

Bakıda fəaliyyət göstərən sahibkarlarla keçirilmiş görüşlərdən sonra Vergilər Nazirliyi martın 14-dən başlayaraq regionlarda da yerli iş adamları və sahibkarlarla görüşlərə başlayıb. Məqsəd ölkəmizdə daha əlverişli biznes mühitinin formalaşdırılması, vergi qanunvericiliyində edilmiş dəyişikliklər, eləcə də vergi sahəsində aparılan islahatlar barədə vergi ödəyicilərini məlumatlandırmaq, bu sahədə sahibkarların qarşılaşdıqları problem və çətinliklərlə yerində tanış olaraq onları həll etməkdir.

İlk belə görüşlər martın 14-də Şamaxı, Şəmkir və Lənkəranda, martın 15-də isə Beyləqan, Qəbələ və Gəncədə keçirilib. Görüşlərdə Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri və müxtəlif sahələrdə çalışan sahibkarlar iştirak ediblər.



Vergilər Nazirliyinin nümayəndələri tədbirlərdə çıxış edərək bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, yaranmış yeni iqtisadi şəraitdə ölkəmizin bundan sonrakı inkişafı əsasən sahibkarlığın inkişafından asılı olacaqdır. Daha əlverişli biznes mühitinin formalaşdırılması, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi, xüsusilə də sahibkarlığın inkişafına mane olan əngəllərin aradan qaldırılması üçün dövlət tərəfindən bütün zəruri tədbirlər həyata keçirilir. Yerli istehsalın artırılması və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması məqsədilə ölkə başçısının müvafiq fərmanları ilə sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılıb, xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-dək azaldılaraq onların verilməsi prosedurları sadələşdirilib, ixrac yönümlü istehsalın stimullaşdırılması və ixrac fəaliyyətinin təşviq edilməsi ilə bağlı konkret tədbirlər görülüb. Qeyd edilib ki, bunun müqabilində vergi ödəyiciləri, sahibkarlar da öz üzərinə düşən vəzifələri yerinə yetirməli, vergiləri düzgün hesablayaraq dövlət büdcəsinə vaxtında və tam həcmdə ödəməli, vergi uçotunun aparılmasında şəffaflığı təmin etməlidirlər.



Görüşlərdə Vergi Məcəlləsində edilmiş dəyişikliklər barədə sahibkarlara ətraflı məlumat verilib. Bildirilib ki, bu dəyişikliklər vergi yükünün əhəmiyyətli dərəcədə aşağı salınmasına, kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin cəlbediciliyinin artırılmasına, sahibkarlıq subyektlərinin sərəncamında daha çox vəsaitin qalmasına xidmət edir.

Görüşlər zamanı vergi uçotunun aparılmasında şəffaflığın təmin olunması ilə bağlı məsələlər də geniş müzakirə olunub. Qeyd edilib ki, vergi ödəyiciləri dövriyyələrini düzgün göstərməli, sənədləşmə işlərini şəffaf aparmalı, bu sahədə pozuntulara yol verməməlidir. Bildirilib ki, topdan və pərakəndə ticarət obyektlərində sənədsiz malların satışı yolverilməzdir, nəzarət-kassa aparatlarından və POS-terminallardan geniş istifadə olunmalıdır. Vergilər Nazirliyinin nümayəndələri sahibkarları bu sahədə hansısa problemlə üzləşdikləri zaman yerli vergi orqanlarına və regionlardakı vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməyə səsləyiblər.

Sahibkarların qarşılaşdıqları çətinliklərlə bağlı müraciət və təklifləri diqqətlə dinlənilib, çoxsaylı sualları cavablandırılıb.

Qeyd edək ki, həftənin sonunadək Sumqayıt, Şirvan, Quba, Zaqatala, Yevlax və Göyçayda da belə görüşlərin keçiriləcəyi nəzərdə tutulub.

## ÇAĞRI MƏRKƏZİNDƏ • FEVRAL 2016-cı il

**Vergilər Nazirliyinin Çağrı Mərkəzində canlı əlaqə zamanı 41449 sual xarakterli müraciət cavablandırılmışdır**

**Səsli menyu vasitəsilə daxil olan zənglər**

vergi borcları ilə bağlı məlumat verilmişdir — 2772

cəmi 4196

vergi növləri ilə bağlı məlumat verilmişdir — 1424

**Vergi ödəyicilərinə xidmət strukturlarında**

51005 — vergi ödəyicisi qəbul edilmişdir

81312 — xidmət göstərilmişdir

**Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə daxilolmalar**

432761

# Vergi bəyannamələri və hesabatı vaxtında təqdim edilməlidir

**Azərbaycan Respublikasının Vergi Məcəlləsinin müvafiq müddəalarına əsasən, 2015-ci ilin yekununa görə hüquqi şəxslər mənfəət və əmlak vergisi, fiziki şəxslər isə gəlir vergisi bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına təqdim etməlidirlər. Bəyannamənin təqdimetmə (habelə verginin ödənilmə) müddətinin sonuncu günü qeyri-iş gününə düşdüyü halda, növbəti iş günü təqdim oluna bilər.**

Vergi ödəyiciləri göstərilən müddətədək bəyannamələri vergi oranına təqdim etməyə, hesablanmış vergiləri vaxtında və tam həcmdə dövlət büdcəsinə köçürməyə borcludurlar.

**Hesabatların bayram günlərinə qədər verilməsi tövsiyə olunur**

Çoxillik təcrübələr göstərir ki, bəzən vergi ödəyiciləri bəyannamələri ya məsuliyyətsizlikdən, ya da bilməyərəkdən gecikdirirlər. Bəzi hallarda isə bəyannamələrin təqdim edilməsi sonuncu günə saxlanılır ki, bu da müraciətlərin çoxalmasına səbəb olur və müəyyən texniki çətinliklərin ortaya çıxmasına rəvac verir.

Bəyannamələrin vaxtında təqdim olunması və vergi öhdəliklərinin tez bir zamanda yerinə yetirilməsi həm vergi ödəyicilərinin, həm də vergi orqanlarının işini asanlaşdırır. Bu prosesin tezləşdirilməsi büdcə daxilolmalarına da müsbət təsirini göstərir. Vətəndaşların pensiya və müavinətləri, dövlət sektorunda çalışanların əməkhaqları isə dövlət büdcəsinə daxilolmalardan asılıdır.

**Bəyannamələrin elektron formada təqdim edilməsi daha məqsədəuyğundur**

Vergi Məcəlləsinə uyğun olaraq, vergi ödəyiciləri vergi hesabatlarını təqdim edilməsi təsdiq oluna bilən hər hansı üsulla - rabitə təşkilatına təhvil verilməsi və ya elektron sənəd formasında göndərə bilərlər. Yaradılmış şəraitdən istifadə edən vergi ödəyicilərinin təxminən 90 faizi bəyannamələrini daha asan yolla - elektron formada təqdim edirlər.

**Vaxtında hesabat verməyən vergi ödəyicələri maliyyə sanksiyalarına məruz qalacaqlar**

Vergi Məcəlləsində hesabatın vaxtında təqdim edilməməsinə, vergilərin vaxtında ödənilməməsinə və yayındırılmasına görə maliyyə sanksiyasının tətbiq edilməsi nəzərdə tutulmuşdur. Vergi hesabatını və ya fəaliyyətin olmaması barədə arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisi 40 manat məbləğində cərimə edilir. Bundan başqa, verginin məbləği hesabatda göstərilməli olan məbləğdən az göstərilmişdirsə, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisi azaldılmış və ya yayındırılmış vergi məbləğinin 50%-i məbləğində maliyyə sanksiyası ilə cəzalandırılır.

Bundan əlavə, vergi və ya cari vergi ödəməsi Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz tutulur.

**Rəşad SADIQOV**

*Novruz bayramı ilə əlaqədar bu il mart ayının 19-dan 27-dək qeyri-iş günü olacağını nəzərə alaraq, ayın son günlərində vergi ödəyicilərinin müraciətlərinin artması səbəbindən gərginliyin yaranmaması və iş prosesinin ahəngdarlığının təmin olunması məqsədilə cari vergi öhdəliklərinin yerinə yetirilməsini, habelə müvafiq vergi bəyannamələrinin təqdim edilməsini 19 mart 2016-cı il tarixədək həyata keçirmək tövsiyə olunur*

# Azərbaycan iqtisadiyyatının «Strateji yol xəritəsi»

Bakıda «Azərbaycanda aparılan iqtisadi islahatlara Azərbaycanda Amerika Ticarət Palatasının dəstəyi» mövzusunda keçirilən konfransda Prezidentin iqtisadi islahatlar üzrə köməkçisi Natiq Əmirov ölkə iqtisadiyyatının perspektivləri barədə açıqlama verib. Onun sözlərinə görə, orta və uzunmüddətli dövr üçün Azərbaycanın dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində dövlət başçısı İlham Əliyev tərəfindən qarşıya qoyulmuş hədəflərə uyğun olaraq, artıq bütövlükdə milli iqtisadiyyatın və onun əsas prioritet sektorları üzrə «Strateji yol xəritəsi»nin hazırlanmasına başlanılıb.

Prezident köməkçisinin sözlərinə görə, burada iqtisadiyyatın aparıcı sektorları, habelə zəruri iqtisadi infrastrukturun yaradılmasına xidmət edəcək dəstəkləyici sektorların inkişaf strategiyasının düzgün müəyyən edilməsi, iqtisadi artımın dayanıqlığının təmin olunması əsas məqsədlərdəndir: «Dövlət başçısının rəhbərliyi ilə müntəzəm əsaslarla həyata keçiriləcək sistem xarakterli islahatlar və qlobal iqtisadi çağırışlara uyğun olaraq hazırlanacaq «Strateji yol xəritəsi»nin icrası nəticəsində biz sahibkarlarla birlikdə iqtisadi islahatlar və inkişafın mahiyyət etibarilə yeni bir modelini - Azərbaycan modelini daha da inkişaf etdirmiş olacağıq. Azərbaycanı investorlar üçün ən cəlbedici ölkələrdən birinə çevirmək niyyətindəyik».

# Azərbaycanda sosial müdafiə sistemi beynəlxalq standartlar səviyyəsində qurulub

*Hər bir dövlətin həyata keçirdiyi sosial müdafiə siyasətinin ən mühüm və əsas istiqamətlərindən biri pensiya təminatı sistemidir. Azərbaycanda müstəqilliyin ilk illərində ölkə iqtisadiyyatının zəif inkişafı, maliyyə çatışmazlıqları pensiya təminatı sistemində də çətinliklərə səbəb olsa da, sonradan dayanıqlı iqtisadi inkişafın əldə edilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsinə zəmin yaratdı.*

***Qanun etibarlı pensiyanı təmin edir***

Sosial müdafiə sahəsində güclü qanunvericilik bazası formalaşdırıldı və «Vətəndaşların pensiya təminatı haqqında» Qanunun qüvvəyə minməsi bu sahədə əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Vətəndaşlar qocaldıqda, əmək qabiliyyətini tamamilə və ya qismən itirdikdə, habelə ailə başçısını itirdikdə qanun onların Konstitusiyada təsbit olunmuş maddi təminat hüququna zəmanət verməklə vahid dövlət pensiya sistemini müəyyən edir, dolanacaq xərcləri dəyişdikcə pensiya məbləğlərinin də müntəzəm olaraq dəyişdirilməsi yolu ilə pensiyaçıların sosial müdafiəsinə təminat verir.

***Pensiyaların orta aylıq məbləği hər il yüksəlir***

Əhalinin sosial müdafiəsi sahəsində aparılan məqsədyönlü tədbirlər pensiyaların orta aylıq məbləğinin hər il yüksələn dinamika ilə artımına səbəb olmuşdur və son illərdə pensiyaların baza və sığorta hissəsinin yüksəldilməsi tədbirləri davam etdirilir. Dövlət Sosial Müdafiə Fondunun sədri Elman Mehdiyev 2016-cı il üçün dürüstləşdirilmiş büdcə layihəsinin müzakirəsi zamanı çıxışında bildirib ki, yeni layihədə Fondun gəlir və xərcləri 3 mlrd. 307,4 mln. manat proqnozlaşdırılıb. Bu da 2016-cı ilin təsdiq olunmuş proqnoz göstəricisinə nisbətən 228,8 mln. manat və ya 7,4 faiz çoxdur.

Prezident İlham Əliyev pensiyaçıların sosial müdafiəsini gücləndirmək məqsədilə əmək pensiyalarının baza hissəsinin artırılması haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, yaşa görə əmək pensiyasının baza hissəsinin məbləği 2016-cı il fevralın 1-dən 10 faiz artırılaraq 110 manat müəyyən edilib. Azərbaycanın milli qəhrəmanlarının və şəhidlərin ailə üzvlərinin, əlillərin və digər şəxslərin əmək pensiyalarının baza hissəsinə əlavələr də daxil olmaqla, bütün növ əmək pensiyaları üzrə aylıq pensiya məbləğinin artırılaraq yenidən hesablanması təmin edilib. Əmək pensiyalarının baza hissəsinin artırılmasına dair sərəncam təxminən 1 milyon 223 min pensiyaçıya şamil olunub.

***İqtisadçı rəyi***

Millət vəkili Əli Məsimli bildirir ki, Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsinin tələblərinə görə, hər kəsin sosial təminat hüququ vardır və bütün vətəndaşlar qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat almaq hüququna malikdirlər: «Müstəqillik illərində Azərbaycanda pensiya sisteminin beynəlxalq standartlar səviyyəsində qurulması və əhalinin pensiya təminatının yaxşılaşdırılması istiqamətində xeyli işlər görülüb. Son 10 ildə əmək pensiyalarının baza hissəsinin məbləği 35 manatdan 100 manata, orta aylıq məbləği isə 41 manatdan 176 manata çatmışdır. 2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı»na və digər sənədlərə uyğun surətdə həyata keçirilən tədbirlər nəticəsində yaşa görə əmək pensiyasının orta aylıq məbləği 2010-cu ildəki 104 manatdan 2015-ci ildə 196 manata və ya ölkə üzrə orta əməkhaqqının 42 faizinə çatıb».

Ə.Məsimli pensiya sistemini optimallaşdırmaq, səmərəliliyini artırmaq və sosal funkisyasını gücləndirməkdən ötrü hələ çox iş görmək lazım gəldiyini bildirir: «Bir sıra ölkələrdə olduğu qədər kəskin xarakter almasa da, müəyyən müddətdən sonra Azərbaycanda da demoqrafik qocalma göstəriciləri artacaq. Belə çətin vəziyyətdə Azərbaycan yalnız yeni modelə - ölkənin tarazlı və dayanıqlı inkişafına köklü zəmin yaradan insan amili modelinə keçməlidir. Bu yol cəmiyyət həyatının bütün sahələrində köklü islahatların aparılmasını və əlbəttə ki, ölkə əhalisinin 1,3 milyon nəfərini əhatə edən pensiya sisteminin təkmilləşdirilməsi işinin davam etdirilməsini tələb edir».

Ə.Məsimli qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 4 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası» həmin məqsədə xidmət edir: «Konsepsiyanın daha dolğun şəkildə icrası məqsədilə hazırda ölkəmizdə pensiya təminatı sistemində sosial sığorta prinsiplərinin gücləndirilməsi, o cümlədən sığorta prinsiplərinə əsaslanmayan xərclərin minimum səviyyəyə endirilməklə maliyyələşdirilməsi mənbələrinin optimallaşdırılması, pensiya təyinatı şərtlərinin hər bir şəxs üzrə ödənilən sosial sığorta haqqının məbləğinə uyğunlaşdırılması, əmək pensiyasının baza hissəsinin restrukturizasiyası və minimum pensiya məbləği göstəricisinin tətbiqi və sair bu kimi istiqamətlərdə sistemli işlər görülür».

Millət vəkili onu da qeyd edib ki, beynəlxalq təcrübədən istifadə istiqamətlərində səylər də pensiya sisteminin səmərəliliyinin artırılması baxımından çox zəruridir. Dünya Bankı ilə birlikdə PROST modelinin Azərbaycanın sığorta-pensiya sistemində tətbiqi və Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti olan TAIEX proqramı çərçivəsində «Pensiya təminatı sahəsində aktuar tədqiqat və modelləşdirmə» layihəsinin reallaşdırılması istiqamətində görülən işlər də mühüm əhəmiyyət kəsb edir.

İqtisadçı alim Pərviz Heydərov isə bildirir ki, Azərbaycanda dövlətin iqtisadi siyasətinin əsasını əhalinin sosial müdafiəsinin gücləndirilməsi təşkil edir: «Ölkəmizdə sığorta-pensiya sistemi və dövlət sosial yardımı sistemlərinin ayrı-ayrılıqda beynəlxalq standartlar əsasında fəaliyyət göstərməsi müəyyənləşdirilib və bu məqsədlə 2001-ci ilin noyabrında «Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında» Qanun qəbul edilib. 2006-cı il yanvarın 1-dən isə 3 qanun - «Əmək pensiyaları haqqında», «Dövlət sosial müavinətləri haqqında» və «Ünvanlı dövlət sosial yardımı haqqında» qanunlar qüvvəyə minib. Bununla da hər iki sistemin fəaliyyətini təmin edəcək qanunvericilik bazası yaradılıb. Hazırda sığorta-pensiya sistemi 3 qanun - «Sosial sığorta haqqında», «Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında», «Əmək pensiyaları haqqında» qanunlar, dövlət sosial yardım sistemi isə ayrıca 2 qanun - «Dövlət sosial müavinətləri haqqında» və «Ünvanlı dövlət sosial yardımı haqqında» qanunlar əsasında fəaliyyət göstərir.

İqtisadçı deyir ki, hazırda Azərbaycanda real yığıma əsaslanan pensiya planlarının tətbiqi həyata keçirilməkdə olan islahatların əsas istiqamələrindən birini təşkil edir və bu, əmək pensiyalarının könüllü yığım əsasında təşkilinin fəallaşdırılmasını və qeyri-dövlət pensiya institutlarının inkişaf etdirilməsini, bununla da vətəndaşlara əlavə pensiya təminatı yaradacaq mexanizmlərin formalaşdırılmasını nəzərdə tutur: «Bu məqsədlə beynəlxalq ekspertlərlə birgə ölkəmizdə könüllü sosial sığortalanmanın tətbiqi sahəsində hazırlanan dövlət sığorta-pensiya sistemində real yığım komponentinin tətbiqinə və qeyri-dövlət pensiya fondlarının fəaliyyətinin təşkilinə dair iki yeni qanun layihəsi hazırlanır. Həmin qanun layihələrində könüllü sosial sığorta haqlarının toplanması mexanizmləri, vəsaitlərin dövriyyəsindən əldə edilən gəlirlərin fərdi uçotunun aparılması, idarəedici şirkətlərə olan tələblər, investisiya qaydaları, qeyri-dövlət pensiya fondlarının yaradılması və fəaliyyətinin təşkili, bu institutlarda öhdəliklərin yerinə yetirilməsi üçün adekvat və səmərəli təminat mexanizmlərinin formalaşdırılması və effektiv idarəetmə sisteminin tətbiqi, o cümlədən qeyri-dövlət pensiyalarının təyinatı, ödənilməsi, bu sahədə dövlət tənzimlənməsi və nəzarətinin əsas istiqamətləri və digər məsələlər əks olunacaqdır».



*Beynəlxalq ekspertlərlə birgə ölkəmizdə könüllü sosial sığortalanmanın tətbiqi sahəsində hazırlanan dövlət sığorta-pensiya sistemində real yığım komponentinin tətbiqinə və qeyri-dövlət pensiya fondlarının fəaliyyətinin təşkilinə dair iki yeni qanun layihəsi hazırlanır*

***Təqaüdçülərin fikirləri...***

75 yaşlı *Solmaz Bayram qızı Abdullayeva:* «Həyat yoldaşım dünyasını dəyişib. Övladlarımla yaşamağıma baxmayaraq, vaxtilə müəllim işləməyim nəticəsində dövlətdən aldığım pensiya mənim üçün çox dəyərlidir. Devalvasiyadan əvvəl 153 manat pensiya alırdım, hazırda bu məbləğ 168 manata çatıb. Öz pulum, halal qazancım mənə daha şirindir».

82 yaşlı *Suğra Dadaş qızı Gülməmmədova:* «134 manat pensiya alıram. Bu puldan nəvələrimə hədiyyələr alır, onları bir nənə kimi sevindirə bilirəm. Ahıllıq yaşında bir nənənin bundan başqa bir istəyi olarmı?»

76 yaş *Elmira Xanağa qızı Bağırova:* «Əvvəllər təqaüdüm 55 manat idi. Həyat yoldaşımın vəfatından sonra onun təqaüdünü də mənimkinin üstünə gəldilər. İndi hər ay 169 manat pensiya alıram. Bu, aylıq xərclərimi, dava-dərmanımı qarşılayır. Balalarıma yük olmaq istəmirəm».

***DSMF-nin proqnoz göstəriciləri***

«Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2016-cı il büdcəsi haqqında» Qanunda edilən dürüstləşmə də məhz əhalinin sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb. Yeni büdcəyə əsasən, əhaliyə ödənişlər 3 mlrd. 239 mln.manat nəzərdə tutulur, bu da təsdiq olunmuş proqnoz göstəricisinə nisbətən 7,6 faiz və ya 227,8 mln. manat çoxdur. Konkret olaraq əmək pensiyalarının ödənişi xərcləri 3 mlrd. 136,1 mln. manat təşkil etməklə 2016-cı il üçün təsdiq olunmuş proqnoz göstəricisinə nisbətən 7,3 faiz və ya 212,5 mln. manat çoxdur. Xərc artımında yaşa görə əmək pensiyasının baza hissəsinin 110 manat təyin edilməsi ilə bağlı olaraq, bütün növ əmək pensiyalarının baza hissəsinin və baza hissəsinə əlavələrin yenidən hesablanması, müəyyən kateqoriyadan olan hərbi qulluqçu və xüsusi rütbəli şəxslərin vəzifə maaşlarındakı artıma müvafiq qulluq stajına görə əmək pensiyalarına əlavələrin artırılması, eləcə də əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi xərclərinin dürüstləşdirilməsi nəzərə alınıb. DSMF-nin büdcəsində məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlərin bütün növləri üzrə də artım nəzərdə tutulub. Müavinətlərin ödənişi xərcləri 102,9 mln. manat təşkil etməklə 2016-cı il üçün təsdiq olunmuş proqnoz göstəricisinə nisbətən 17,5 faiz və ya 15,3 mln. manat artımla nəzərdə tutulub. Pensiya və müavinətlərin əhaliyə çatdırılması, bank əməliyyatlarının aparılması üzrə xidmət haqqı xərclərində 0,9 mln. manat və ya 4,5 faiz artım nəzərdə tutulub, bu istiqamət üzrə xərclər 20,1 mln. manat ilkin məbləğə qarşı 21mln. manat həcmində proqnozlaşdırılıb.

**Fəxriyyə İKRAMQIZI**

*Yazı DSMF-nin «Pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi xüsusi diqqət mərkəzindədir» mövzusunda keçirdiyi müsabiqəyə təqdim edilir*

Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

## Qrant layihəsi ilə bağlı vergi öhdəlikləri

***Mən fiziki şəxs olaraq sadələşdirilmiş vergi ödəyicisiyəm. Qrant layihəsi ilə bağlı hansı vergi öhdəliklərim yaranır?***

Azərbaycan Respublikasının «Qrant haqqında» 1998-ci il 17 aprel tarixli, 483-IQ nömrəli Qanununun 3-cü maddəsinə görə, ölkədə fəaliyyət göstərən, nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik, yaxud qrant layihə və proqramlarının həyata keçirilməsi olan və qrant almaqla birbaşa mənfəət götürmək məqsədi güdməyən rezident və qeyri-rezident hüquqi şəxslər, onların filial, nümayəndəlik və şöbələri, Azərbaycan Respublikasının fiziki şəxsləri resipiyent (qrant alan şəxs) ola bilərlər.

Qanunun 4-cü maddəsində qeyd olunub ki, donorla resipiyent arasında yazılı müqavilə və ya qrant verilməsi haqqında donorun yazılı qərarı qrant verilməsi, alınması və istifadəsi üçün qanuni əsasdır. Azərbaycan Respublikasının resipiyentlərinin aldıqları qrantlar haqqında müqavilələr (qərarlar) qeydə alınması üçün resipiyentlər tərəfindən müvafiq icra hakimiyyəti orqanına təqdim olunur. Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Qeydə alınmayan qrant verilməsi və ya alınması haqqında müqavilələr (qərarlar) üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar aparıla bilməz.

Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 216 nömrəli qərarı ilə təsdiq edilmiş «Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası»nın 1.3-cü bəndinin müddəalarına uyğun olaraq, müqavilələrin (qərarların) qeydə alınması fiziki şəxslərə münasibətdə Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

Vergi Məcəlləsinin (VM) 220.1-ci maddəsinə uyğun olaraq, sadələşdirilmiş vergi (VM-in 218.4-cü maddəsində nəzərdə tutulmuş fəaliyyətlə məşğul olan və 218.1.2-ci maddəsində göstərilən vergi ödəyiciləri istisna olmaqla) bu verginin ödəyicilərinin malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən əldə etdiyi vəsaitin məbləğindən (ümumi hasilatının həcmindən) və satışdankənar gəlirlərdən Bakı şəhərində 4 faiz, digər şəhər və rayonlarda, Naxçıvan Muxtar Respublikasında 2 faiz dərəcə ilə hesablanır.

Sadələşdirilmiş verginin ödəyiciləri hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanlarına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyirlər (VM, maddə 221.3).

Qeyd olunanlara əsasən:

Sadələşdirilmiş verginin ödəyicisi olan Azərbaycan Respublikasının resipiyentləri tərəfindən qrant alınması haqqında müqavilələr (qərarlar) qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq orqanlarda qeydiyyata alınmadığı halda və ya bu vəsaitlərdən gəlir götürmək məqsədilə istifadə edildikdə həmin vəsaitlər qrant sayılmır və VM ilə müəyyən olunmuş qaydada sadələşdirilmiş vergiyə cəlb edilir.

Qrant layihəsindən əlavə sahibkarlıq fəaliyyəti həyata keçirildiyi halda, bu fəaliyyət çərçivəsində malların təqdim olunmasından, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən gəlirlərdən (hasilatdan) Bakı şəhəri istisna olmaqla, digər şəhər və rayonlarda 2 faiz dərəcə ilə sadələşdirilmiş vergi hesablanıb hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilir.

## Avtomatlaşdırılmış vergi informasiya sisteminin əhatə dairəsi genişlənir

Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş «Elektron kənd təsərrüfatı» informasiya sistemindən istifadə Qaydaları»na uyğun olaraq, Vergilər Nazirliyi ilə Kənd Təsərrüfatı Nazirliyi (KTN) arasında razılaşma sənədi imzalanıb.

Sənəd KTN-nin «Elektron kənd təsərrüfatı» informasiya sistemi (EKTİS) ilə Vergilər Nazirliyinin avtomatlaşdırılmış vergi informasiya sistemi (AVİS) arasında elektron məlumat mübadiləsini nəzərdə tutur. Razılığa əsasən, EKTİS ilə AVİS arasında elektron məlumat mübadiləsi «nöqtə-nöqtə» prinsipi üzrə həyata keçiriləcək, xüsusi qorunan rabitə kanalları vasitəsilə birbaşa tənzimlənəcək. Məlumat mübadiləsi zamanı sorğuların verilməsi və real vaxt rejimində cavablandırılması nəzərdə tutulub.

EKTİS-dən AVİS-ə sorğular kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan vergi ödəyicilərinə aid məlumatları əhatə edəcək. Bu məlumatlar vergi ödəyicilərinin (fiziki və hüquqi şəxsin) adı, eyniləşdirmə nömrəsi (VÖEN), ünvanı, hüquqi şəxslərin qanuni təmsilçisi, sahibkarların fəaliyyət növünün kodu kimi zəruri informasiyalardan ibarət olacaq. Mətn tipli məlumatların ötürülməsi zamanı UNICODE kod standartları tətbiq ediləcək. Razılaşmaya əsasən, tərəflər məlumatların müasir informasiya texnologiyalarından və tələb olunan həcmdə ötürülməsinə imkan verən texniki avadanlıqlardan istifadə edəcəklər. Qarşılıqlı əlaqəni həyata keçirmək üçün tətbiq olunan proqram təminatı universal məlumat formatlarını dəstəkləməli və standart mübadilə protokollarına əsaslanmalıdır. Kənd Təsərrüfatı Nazirliyi AVİS-ə qoşulmaqla kommersiya (vergi) sirrini təşkil edən məlumatlardan vergi qanunvericiliyinə uyğun olaraq istifadə edərkən, həmin məlumatların qorunmasına təminat verməyi öhdəsinə götürüb. Həmçinin, məlumatların mühafizəsi məqsədilə icazəsiz girişin və proqram texniki vasitələrin fəaliyyətini poza biləcək təsirlərin qarşısı alınacaq. Məlumatların mühafizə səviyyəsinin təmin edilməsinə daimi nəzarət həyata keçiriləcək.

Tərəflərin razılığına əsasən, informasiya mübadiləsi müvəqqəti olaraq digər formalarda da aparıla bilər. Texniki nasazlıq və digər səbəblərdən məlumat mübadiləsinin rabitə kanalları vasitəsilə aparılması mümkün olmadıqda, nasazlıq aradan qaldırılanadək digər elektron informasiya daşıyıcılarından istifadə ediləcək.

Avropa İttifaqının (Aİ) maliyyə dəstəyi ilə həyata keçirilən «Elektron kənd təsərrüfatı» informasiya sistemi aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlərin mühüm tərkib hissəsi hesab edilir. «E-hökumət» proqramına əsasən, idarəetmədə şəffaflığın və səmərəliliyin artırılmasına, sahibkarlara elektron xidmətlərin göstərilməsinə xidmət edən sistemin məlumatlarının müvafiq qurumların servislərinin portalları vasitəsilə ötürülməsi də nəzərdə tutulub.

EKTİS-in fəaliyyətinin əsas istiqamətlərindən biri də məhz digər dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları ilə inteqrasiyasından ibarətdir. Bu baxımdan, AVİS-lə EKTİS arasında yaradılan səmərəli əməkdaşlıq dövlət qurumları tərəfindən göstərilən elektron xidmətlərin inteqrasiyasına müsbət təsir edəcək, ölkəmizdə «E-hökumət» quruculuğu istiqamətində aparılan işlərə öz töhfəsini verəcək.

**ELBRUS**

*Məlumat üçün qeyd edək ki, 2006-cı ildən tətbiq edilən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi Azərbaycanda «Elektron hökumət» in qurulması istiqamətində həyata keçirilən mühüm layihələrdən biridir. Layihənin reallaşdırılması nəticəsində Azərbaycanın vergi xidməti təkcə MDB ölkələri arasında deyil, həmçinin Şərqi Avropada ən müasir informasiya texnologiyasına malik xidmətlərdən birinə çevrilib. Bu sistem kağız dövriyyəsinin aradan qaldırılması, nəzarət imkanlarının genişləndirilməsi, vergi ödəyiciləri ilə vergi orqanları arasında texnoloji elektron əlaqələrin yaradılması, digər dövlət strukturları ilə inteqrasiyanın möhkəmləndirilməsi və məlumat mübadiləsinin həyata keçirilməsi baxımından mükəmməl layihədir.*

*AVİS-in əsas məqsədi büdcənin mədaxil hissəsinin tam və vaxtında formalaşdırılması, çevik və səmərəli vergi inzibatçılığının həyata keçirilməsi üçün effektli informasiya dəstəyinin təmin edilməsi, Vergilər Nazirliyinin bütün strukturlarında vahid informasiya və məlumatların saxlanılması və emalı imkanının yaradılması, yerli vergi orqanlarının funksiyalarının avtomatlaşdırılması və eyni zamanda, dövlət qurumları ilə inteqrasiyanın həyata keçirilməsi və onlarla qarşılıqlı məlumat mübadiləsinin həyata keçirilməsindən ibarətdir.*

## Xarici sərmayəçilər qeyri-neft sektorunu seçirlər

Böyük Britaniya Azərbaycanda qeyri-neft sektorunun inkişafını təşviq edən islahatları dərindən izləyir və qarşıdakı dövrdə ingilis iş adamlarının neftdənkənar sahələrə sərmayə qoyması istiqamətində layihələrini dəstəkləyəcək. Böyük Britaniyanın ticarət və investisiyalar üzrə dövlət naziri Fransis Modla Azərbaycanda biznes və investisiya mühitinin təkmilləşdirilməsi ilə əlaqədar aparılan islahatlara münasibət bildirərkən belə deyib.

Britaniyalı nazir qeyd edib ki, azad biznesə dəstək xarakterli bu qərarlar sahibkarlığın inkişafına öz müsbət töhfəsini verəcək, xarici sərmayədarların Azərbaycanda kiçik və orta sahibkarlığa marağını artıracaq. F.Modla sahibkarlıq sahəsində inzibati maneələrin aradan qaldırılması, biznesə başlama prosedurlarının sadələşdirilməsi, lisenziyalaşdırma, icazələr və digər mülki islahatların davam etdirilməsində ölkəmizə texniki yardım göstərməyə hazır olduqlarını bəyan edib. Qeyd olunub ki, Azərbaycan gömrük, vergi, sahibkarlıq sektorunda mütərəqqi islahatlar aparır, şəffaflığın təmin olunması ilə əlaqədar tədbirlər görür. Hazırda aparılan iqtisadi islahatlar və iqtisadiyyatın şaxələndirilməsi siyasəti birgə əməkdaşlığı daha da genişləndirmək baxımından yaxşı fürsət yaradır. Bu, gələcək iqtisadi layihələrin reallaşmasına perspektivlər açır, qeyri- neft sektoruna investisiya qoyuluşlarına marağı artırır. Britaniyalı investorların indiyədək Azərbaycanın neft-qaz sektorunda layihələrdə üstünlük təşkil etdiyini xatırladan F.Modla bildirib ki, bundan sonrakı mərhələdə ingilislər sənaye sahəsində sərmayələri nəzərdən keçirəcəklər.



Sumqayıt Kimya Sənaye Parkında investorlar üçün əlverişli şərait yaradılıb və tətbiq olunan vergi-gömrük güzəştləri birgə layihələrin həyata keçirilməsində əlavə stimul deməkdir. Gələn ay Britaniyanın maşınqayırma və sənaye sahəsində fəaliyyət göstərən şirkətlərinin Azərbaycana səfəri planlaşdırılır. Səfər zamanı ingilis sərmayəçilərin bu sahədəki vəziyyətlə tanış olması nəzərdə tutulur.

İqtisadi əlaqələrin genişlənməsinə Britaniya-Azərbaycan Biznes Şurası ilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) fəaliyyəti də öz müsbət təsirini göstərməkdədir. Fondun rəhbəri Rüfət Məmmədov bildirib ki, hazırda Azərbaycan və Böyük Britaniyanın iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji, ticarət, investisiya qoyuluşu sahələrində əməkdaşlıq edir. İndiyədək Böyük Britaniya tərəfindən Azərbaycan iqtisadiyyatına 25 milyard dollara yaxın sərmayə yatırılıb. Azərbaycanda 47-dən artıq Britaniya sərmayəli şirkət fəaliyyət göstərir. Bu ölkə Azərbaycan iqtisadiyyatına ən çox investisiya yatırıb. O, Böyük Britaniya iş adamlarını ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühitindən yararlanmağa, yerli sahibkarlarla fəal əməkdaşlığa dəvət edib, qeyri-neft sektoruna sərmayə qoyuluşları və biznes fəaliyyəti üçün bəzi güzəştlərin tətbiqinin, o cümlədən investisiya təşviqi sənədinin verilməsinin əlavə imkanlar yaradacağını vurğulayıb. İngiltərəli nazir də təşviq sənədinin potensial tərəfdaşlığın möhkəmlənməsi və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsi baxımından faydalı olacağına inandığını diqqətə çatdırıb.

AZPROMO rəhbəri qeyd edib ki, «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı»nda əsas yer tutan məsələlərdən biri xarici investorların ölkəmizin sənaye sahələrinə cəlb olunması üçün əlverişli investisiya mühitinin təmin edilməsi, təşviqedici və stimullaşdırıcı addımların atılmasından ibarətdir. Bu siyasətə uyğun olaraq, Böyük Britaniyanın iri sənaye korporasiya və şirkətlərinin rəhbərləri ilə sərmayə qoyuluşu imkanları və perspektiv əməkdaşlıq barədə səmərəli danışıqlar aparılmaqdadır. Hazırda bu ölkənin sənaye texnoparkları və biznes-inkubatorları üzrə ixtisaslaşmış şirkətlərinin nümayəndələri ilə danışıqlar davam etdirilir.

**E.CƏFƏRLİ**

## Zamin duranlar nələri bilməlidirlər...

Azərbaycanda manatın devalvasiyasından sonra ölkənin iqtisadi həyatında ən aktual məsələlərdən biri də bank kreditlərinin ödənilməsi ilə bağlıdır. Bank müştərilərinin əksəriyyətinin kreditini normal ödəməməsi onlara zamin durmuş şəxslərə də problemlər yaratmağa başlayıb. Fins.az-ın məlumatına görə, borclulardan pulunu vaxtında ala bilməyən banklar kreditin qaytarılmasını dərhal zaminlərdən tələb edirlər. Mütəxəssislər isə deyir ki, əgər kimsə bankda başqasına zamin durubsa, borcun ödənilməməsinə görə məsuliyyət daşıyır, amma bu məsələdə də müəyyən məqamlar var. Yəni bank dərhal zamini axtarmamalıdır...

***Zaminliyin fərqli formaları***

Hüquqşünas Əkrəm Həsənovun sözlərinə görə, qanunla zamin durmağın iki forması mövcuddur: birgə zaminlik və əlavə zaminlik. Birinci halda zamin kreditin qaytarılmasına görə borclu ilə paralel məsuliyyət daşıyır. Yəni kredit ödənilməsə bank həm borcludan, həm də zamindən eyni vaxtda pulu tələb edə, onları məhkəməyə verə bilər.

Əlavə zaminlikdə isə vəziyyət fərqlidir. Bank ilk növbədə borclunu məhkəməyə verməli, borcun qaytarılması ilə bağlı qərarın çıxarılmasına nail olmalı və icra məmuru vasitəsilə borcu tələb etməlidir. Əgər borcalan imkanı ola-ola borcu ödəmirsə, o halda bank zamindən pulu tələb edə bilməz. Zamin yalnız o vaxt krediti qaytarmalıdır ki, borclunun ödəniş qabiliyyəti olmasın. Əks təqdirdə, bankın zamindən nə isə istəməyə hüququ yoxdur və pulu elə borcludan tələb etməlidir: «Əgər bank hətta borclunu tapa bilməsə belə, onu zamin tapıb banka göstərməli deyil. Çünki söhbət əlavə məsuliyyətdən gedir».

***Banklar taminə deməlidirlər ki...***

Hüquqşünas deyir ki, zaminlər zaminliyin forması ilə bağlı bəri başdan seçim etməli və bunun kredit müqaviləsində qeyd olunmasına çalışmalıdırlar. Yalnız bu yolla məsuliyyəti minimim həddə endirmək mümkündür. Azərbaycan təcrübəsində müqavilələrin 99%-də zaminlər birgə məsuliyyətə imza atırlar: «Zaminliyin forması barədə vətəndaşların çoxunun məlumatı yoxdur. Bankda isə kredit müqaviləsi imzalananda taminə demirlər ki, sənin belə bir hüququn var. Çünki banklar birgə zaminlikdə maraqlıdır. Son nəticədə müqavilələrin demək olar ki, heç birində əlavə zaminlik qeydə alınmır».

***Zaminlik nə vaxt qüvvədən düşür?***

Mütəxəssisin sözlərinə görə, son vaxtlar müştərilərindən dollar kreditlərini vaxtına ala bilməyən banklar kredit müqaviləsinin müddətini artırırlar. Bu isə avtomatik olaraq zaminliyin qüvvədən düşməsi deməkdir: lVətəndaş konkret müddət üzrə zamin durub. Əgər müqavilə zaminin xəbər olmadan dəyişdirilirsə, müddət artırılırsa, bu o deməkdir ki, artıq zamin məsuliyyətdən yaxa qurtarır». Bundan başqa, borcun ödənilməməsinə görə borclu 3 il ərzində məhkəməyə verilə bilərsə, zaminlər üçün bu müddət 1 ildir. Müqavilənin müddətinin bitməsindən 1 ildən çox vaxt keçibsə, artıq zamindən məhkəmə yolu ilə heç nə tələb edilə bilməz.

## Avropa İttifaqı ilə əməkdaşlıq davam etdiriləcək

Martın 10-da Bakıda «Azərbaycanda müasir standartlaşdırma və texniki tənzimləmə sisteminin inkişafına dəstək» Tvinninq layihəsinin yekununa həsr olunmuş müzakirələr keçirilib.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin aparat rəhbəri Arif Əşrəfov komitənin 2008-ci ildən etibarən Avropa İttifaqının Tvinninq layihəsinə qoşulduğunu söyləyib. Vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qanunvericilik bazasının beynəlxalq normalara uyğunlaşdırılması, regionların sosial-iqtisadi inkişafı, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişafı ilə ölkədə istehsalın səmərəliliyinin artırılması bir məqsəd kimi qarşıya qoyulub. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin əsas vəzifələrindən biri də keyfiyyət infrastrukturunun həyata keçirilməsi ilə bağlı daxili bazarın qorunmasıdır. Bu məqsədlə 2014-cü ildən «Azərbaycanda müasir standartlaşdırma və texniki tənzimləmə sisteminin inkişafına dəstək» Tvinninq layihəsinin icrasına başlanılıb və artıq layihə uğurla başa çatdırılıb.

A.Əşrəfov nəzərə çatdırıb ki, sözügedən layihə Böyük Britaniya, Fransa və Sloveniyanın standartlaşma üzrə müvafiq qurumları ilə birgə həyata keçirilib. Əsas məqsəd bu sahədə Azərbaycan qanunvericiliyinin beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır. Qeyd olunub ki, standartlaşdırma haqqında hazırlanmış qanun layihəsi bugünkü dövrdə sahibkarlıq subyektlərinin fəaliyyəti üçün münbit şəraitin yaradılmasına gətirib çıxaracaq.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin əməkdaşlıq qurumunun rəhbəri Ceroen Uillems Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən reallaşdırılan Tvinninq layihələrinin Azərbaycan hökumətinin uğurlu layihələrindən olduğunu diqqətə çatdırıb. Bildirib ki, Avropa İttifaqı ölkəmizdə təhsil, kənd təsərrüfatı, sahibkarlığın və turizmin inkişafı ilə bağlı mühüm layihələrin həyata keçirilməsində iştirak edir, biznes mühitinin dəstəklənməsinə kömək edir. «Azərbaycanda indiyədək 33 Tvinninq layihəsi reallaşdırılıb. Hazırlanmaqda olan digər layihələr də var və Avropa İttifaqı Azərbaycanla bu sahədə gələcəkdə də sıx əməkdaşlıq edəcək», - C.Uillems vurğulayıb.

# Vergi öhdəliyi

Vergi ödəyicisinin vergi öhdəliyinin yaranması, dəyişdirilməsi və ya ləğv edilməsi üçün əsaslar, vergi öhdəliyinin yerinə yetirilməsi qaydası və şərtləri Vergi Məcəlləsi ilə müəyyən edilir. Vergi ödəyicisi vergi qanunvericiliyinin tələblərinə uyğun olaraq verginin ödənilməsini nəzərdə tutan şəraitin yarandığı andan vergi öhdəliklərini yerinə yetirməyə borcludur.

Vergi ödəyicisi vəfat etdikdə və ya ölmüş hesab edildikdə, Məcəlləyə müvafiq olaraq ləğvetmə komissiyası tərəfindən büdcə ilə bütün hesablaşmalar aparıldıqdan sonra vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə, ölkə qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müflis olması nəticəsində ləğv edilmiş borclu vergi ödəyicisinin məhkəmənin qərarı ilə ödənilməsindən imtina olunmuş tələblər ləğv edilmiş sayıldıqda vergi öhdəliyinə xitam verilir.

**Vergi öhdəliklərinin yerinə yetirilməsi**

Vergi öhdəliklərinin yerinə yetirilməsi ödənilməli olan vergi məbləğinin müəyyən olunmuş müddətlərdə və qaydada ödənilməsi deməkdir. Vergi ödəyicisinin hesablarında və ya kassasında vəsaitin, onun əmlakının olub-olmamasından asılı olmayaraq, vergi öhdəliklərinin yerinə yetirilməsi məcburidir. Bu öhdəliklərin yerinə yetirilməsi digər şəxsin üzərinə qoyula bilməz.

**Müəssisə ləğv edildikdə vergi öhdəliklərinin yerinə yetirilməsi**

Vergi Məcəlləsinin 79.1-ci maddəsinə əsasən, ləğv olunan müəssisənin vergi öhdəliklərini onun pul vəsaitləri, o cümlədən müəssisənin əmlakının satışından əldə edilən gəlir hesabına ləğvetmə komissiyası yerinə yetirməlidir. Bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, ləğvetmə komissiyası müəssisənin filiallarının, digər struktur bölmələrinin və daimi nümayəndəliyinin vergi öhdəliklərini də yerinə yetirməlidir. Ləğv edilən müəssisənin filialının və ya digər ayrıca bölməsinin öhdəliklərini bilavasitə həmin ayrıca bölmənin daxil olduğu müəssisə, bu müəssisə ləğv edildikdə isə həmin müəssisənin ləğvetmə komissiyası yerinə yetirməlidir.

Ləğv olunan müəssisənin pul vəsaiti, o cümlədən vergi öhdəliklərinin yerinə yetirilməsindən ötrü əmlakın satışından əldə edilən vəsait onun vergi öhdəliklərinin tam həcmdə yerinə yetirilməsi üçün kifayət etmədiyi halda, vergi öhdəlikləri üzrə qalan borc qanuna, nizamnaməyə və ya digər təsis sənədinə uyğun olaraq, müəssisənin öhdəlikləri üçün onun iştirakçıları birgə məsuliyyət daşıyırlarsa, həmin iştirakçılar tərəfindən ödənilməlidir. Müəssisənin iflas prosesinə məruz qaldığı hallarda vergi öhdəlikləri qanunla müəyyən edilmiş növbəlilik qaydasında yerinə yetirilir.

**Müəssisə yenidən təşkil edildikdə vergi öhdəliklərinin yerinə yetirilməsi**

Vergi Məcəlləsinin 80.1-ci maddəsinə əsasən, yenidən təşkil olunan hüquqi şəxsin vergi öhdəliklərini onun hüquqi varisi bu maddədə müəyyən edilmiş qaydada yerinə yetirməlidir. Yenidən təşkil edilən hüquqi şəxsin vergi öhdəliklərini yerinə yetirməməsinin, yaxud lazımi qaydada yerinə yetirməməsinin yenidən təşkili başa çatanadək, hüquqi varisə məlum olub-olmamasından asılı olmayaraq, yenidən təşkil edilən hüquqi şəxsin vergi öhdəliklərini onun hüquqi varisi həyata keçirməlidir. Hüquqi şəxsin yenidən təşkil edilməsi onun vergi öhdəliklərinin bu hüquqi şəxsin hüquqi varisi tərəfindən yerinə yetirilməsi müddətlərini dəyişdirmir.

Vergi Məcəlləsinə əsasən, bir hüquqi şəxs digər hüquqi şəxsə birləşdirildikdə, onun birləşdiyi hüquqi şəxs birləşdirilmiş hüquqi şəxsin vergilərinin ödənilməsinə dair öhdəliklərinin yerinə yetirilməsi üzrə hüquqi varisi sayılır. Hüquqi şəxs bölündükdə isə bu cür bölünmə nəticəsində əmələ gələn hüquqi şəxslər bölünmüş hüquqi şəxsin vergilərin ödənilməsinə dair öhdəliklərinin yerinə yetirilməsi üzrə hüquqi varislər sayılırlar. Bir neçə hüquqi varis olduqda, onların hər birinin yenidən təşkil edilən və ya bölünən hüquqi şəxsin vergi öhdəliklərinin yerinə yetirilməsində iştirak payı bölüşdürücü balansa və ya digər təhvil aktına uyğun olaraq müəyyənləşdirilir. Bir hüquqi şəxs təşkilati-hüquqi formasının dəyişdirilməsi yolu ilə digər hüquqi şəxsə çevrildikdə isə onun vergilərin ödənilməsinə dair öhdəliklərinin yerinə yetirilməsi üzrə hüquqi varisi yeni yaranan hüquqi şəxs sayılır.

Hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxs çıxdıqda, çıxmış hüquqi şəxslərin yenidən təşkil edilən hüquqi şəxsin vergi öhdəliklərini yerinə yetirməsi üzrə hüquqi varisliyi yaranmır, bu şərtlə ki, bu cür yenidəntəşkil hüquqi şəxsin vergi öhdəliklərinin yerinə yetirilməməsinə yönəldilməmiş olsun.

**Vəfat etmiş, fəaliyyət qabiliyyətini itirmiş və ya itkin düşmüş fiziki şəxslərin vergi öhdəliklərinin yerinə yetirilməsi**

Vəfat etmiş fiziki şəxsin vergi öhdəliklərini onun varisi miras qalan əmlakın dəyəri hüdudlarında və mirasın alındığı tarixdəki payına mütənasib şəkildə ödəməlidir. Varis olmadıqda vəfat etmiş fiziki şəxsin vergi öhdəlikləri silinir. Məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayılan fiziki şəxsin vergi öhdəliklərini itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş şəxsin əmlak sərəncamçısı kimi səlahiyyətləndirilən şəxs həmin əmlakın hesabına ödəməlidir.

Qanunvericiliklə müəyyən edilmiş qaydada itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş kimi tanınan fiziki şəxsin əmlakı onun vergi öhdəliklərini ödəmək üçün kifayət deyilsə, vergilərin əmlakın çatışmaması ilə əlaqədar ödənilməyən hissəsi Məcəllənin 93-cü maddəsinə uyğun olaraq silinir.

Fiziki şəxsin itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş kimi tanınmasının ləğv olunmasına dair məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada qərar qəbul olunduqda, əvvəllər silinmiş vergi öhdəlikləri bərpa edilir. Lakin fiziki şəxsin itkin düşmüş və ya fəaliyyət qabiliyyətini itirmiş sayıldığı vaxtdan bu cür tanınmanın ləğv olunduğuna dair qərar qəbul edildiyi vaxtadək olan dövr ərzində faizlər hesablanmır və maliyyə sanksiyaları tətbiq edilmir.

**A.NƏBİYEVA**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Maliyyə Bazarlarına Nəzarət Palatasının nizamnamə fondu beş milyon manat təşkil edəcək.

Maliyyə Nazirliyi 2016-cı il üçün dövlət və icmal büdcələrini özündə birləşdirən «Vətəndaşın büdcə bələdçisi» kitabını nəşr etdirib.

Azərbaycan və İran müəssisələri arasında maşınqayırma sahəsində əməkdaşlıq əlaqələrinin qurulması ilə bağlı geniş müzakirələr aparılır.

Azərbaycan Gürcüstana sərmayə qoyan xarici investorlar sırasında birinci yerdədir.

Ölkəmizlə Gürcüstan arasında tranzit yükdaşımaları sahəsində razılıq əldə edilib.

«Cənub Qaz Dəhlizi» şirkətinin istiqrazlarının beynəlxalq bazarlarda yerləşdirilməsi üçün hazırlıqlara başlanılıb.

«Azərikimya» İstehsalat Birliyinin «Etilen-polietilen» zavodunun yenidən qurulması layihəsi çərçivəsində birlik ilə «Technip İtaly» şirkəti arasında detallı mühəndislik və təchizata dəstək xidmətləri üzrə ilkin işlərə dair müqavilə imzalanıb.

# Qanunu pozanlara qarşı cəza tədbirləri sərtləşdirilib

Ölkə başçısının torpaqlardan istifadəyə nəzarətin gücləndirilməsi, torpaq sahələrinin, xüsusilə də kənd təsərrüfatı torpaqlarının təyinatı üzrə istifadəsi, bu sahədə aşkar edilən pozuntulara qarşı mübarizə aparılması ilə bağlı tapşırıqlarına uyğun olaraq, Əmlak Məsələləri Dövlət Komitəsi nəzarət tədbirlərini gücləndirib. Komitədən verilən məlumata görə, Bakı və regionlarda müntəzəm monitorinqlər və torpaq reydləri keçirilir. Aparılmış monitorinqlər nəticəsində bəzi hallarda torpaqların təyinatına uyğun istifadə edilmədiyi, torpaqların ayrılmasında qanunsuzluqlara yol verildiyi, əsassız olaraq torpaqların kateqoriyasının dəyişdirildiyi bəlli olub. Bəzi hallarda kənd təsərrüfatı təyinatlı torpaqlar birbaşa məqsədləri ilə deyil, istehsalat, sənaye məqsədləri üçün istismar olunur. Belə torpaqlarda süni balıq gölləri, daş və gilçınqıl karxanaları və sair obyektlər yaradılır: «Bundan əlavə, qanunla müəyyən edilmiş mühafizə zonalarında yaşayış və ya qeyri-yaşayış, meşə fonduna aid torpaq sahələrində kommersiya məqsədli obyektlər tikilir. Bəzi hallarda torpaqların üst münbit qatının müxtəlif ərazilərə daşınması hallarına rast gəlinir ki, bu da torpaqların eroziyaya uğramasına səbəb olur. Aşkar edilib ki, bir sıra hallarda vətəndaşlar onlara məxsus mülkiyyətin ətrafındakı torpaqları zəbt edir və hasarlayırlar. Müxtəlif təyinatlı torpaq sahələrinin özbaşına zəbt olunması və əsassız istifadəsi isə həm vətəndaşın, həm də dövlətin mülkiyyət mənafelərinin səmərəli qorunmasına maneələr yaradır. Ən çox rast gəlinən problemli məsələlərdən biri də kommunikasiya xətlərinin mühafizə zolağına aid torpaqların zəbt edilərək orada yaşayış evlərinin, sahibkarlıq və digər təyinatlı obyektlərin tikintisi hallarıdır. Bu hallar kommunikasiyaların istismarı zamanı çətinliklər yaratmaqla yanaşı, vətəndaşların həyatı üçün də ciddi təhlükə mənbəyidir».

## *Qanunsuzluqlara yol verənlər 8-10 min manat cərimə və ya azadlıqdan məhrumetmə ilə cəzalandırılır*

ƏMDK-dan bildirilib ki, qeyd edilənlər nəzərə alınaraq, torpaqlardan təyinatsız istifadə, torpaq üzərində mülkiyət, icarə və istifadə hüquqlarının pozulması, torpaqların özbaşına zəbt edilməsi və sair pozuntulara qarşı cəzalar sərtləşdirilib. İnzibati Xətalar Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, sahilboyu mühafizə zolaqları, vəzifəli şəxslər tərəfindən torpaq ayırma ilə bağlı verilən qanunsuz qərarlar, özbaşına tikintilər və ya tikintiyə qanunazidd icazənin verilməsi, mülkiyyət, icarə və istifadə hüququnu pozma ilə əlaqədar cərimələr təyin edilib. Bəzi pozuntulara görə isə inzibati tədbirlərlə yanaşı, cinayət məsuliyyəti də nəzərdə tutulub. Cinayət Məcəlləsində edilən dəyişikliklərə əsasən, mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsini özbaşına hasarlama, becərmə və ya dəyişdirmə, yaxud həmin torpaq sahəsini başqa üsullarla özbaşına tutmaya görə cəzalar müəyyən edilib. Belə qanunsuzluqlara yol verənlər 8-10 min manat cərimə və ya azadlıqdan məhrumetmə ilə cəzalandırılır. İndiyədək komitə tərəfindən torpaq qanunvericiliyinin tələblərinin pozulması ilə bağlı 16709 hal aşkar edilib. İnzibati Xətalar Məcəlləsinin tələblərinə əsasən, dövlət müfəttişləri tərəfindən 787 hal üzrə hüquqi və fiziki şəxslərə xəbərdarlıq edilib. Həmin Məcəlləyə müvafiq olaraq, 2015-ci ildə torpaq qanunvericiliyinin tələblərini pozan 156 şəxs barəsində inzibati tənbeh növü tətbiq edilib və 152 min manatdan çox inzibati cərimə tətbiq olunması barədə qərarlar qəbul edilib.

**AYTƏN**


Vergi ödəyicilərinin NƏZƏRİNƏ!

2015›ci hesabat ilinin yekunlar na g r :

✓ G lir vergisinin  d yicil ri olan rezident v  qeyri›rezident fiziki xsl r
g lir vergisinin b yannam sini
✓ M nf  t vergisinin  d yicil ri olan rezident v  qeyri›rezident h quqi
xsl r m nf  t vergisinin b yannam sini
✓  mlak vergisinin  d yicisi olan m  ssis l r  mlak vergisinin b yannam sini cari ilin mart ay n n 31›d n gec olmayaraq

Mənfəət və gəlir vergisi ödəyicilərinin NƏZƏRİNƏ!

Bildiririk ki, 2015›ci ilin yekununa g r  h quqi  xsl r m nf  t v  mlak vergisi  zr , fiziki  xsl r g lir vergisi  zr  b yannam l rini 31 mart 2016›c  il tarixd n gec olmayaraq vergi orqan na t qdim etm li v  hesablanm  vergil ri h min m dd t d k d vl t b dc sin  d m lidirl r.

Əlavə məlumat üçün «195-1» Çağrı Mərkəzinə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz

Vergilər Nazirliyi


# Əmanətlərin sığortası gücləndirilir

«Əmanətlərin tam sığortalanması haqqında» Qanunun qüvvəyə minməsi ilə əlaqədar Əmanətlərin Sığortalanması Fondunun iştirakçı banklarında sığorta hadisəsi baş verdikdə tam sığortalanmış əmanət üzrə kompensasiya əmanətin 100 faizi həcmində kompensasiya ödəniləcəkdir. Qanun qüvvəyə mindiyi gündən «Əmanətlərin sığortalanması haqqında» Qanunun 8.1.20-ci maddəsinə müvafiq olaraq, Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası tərəfindən əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddində olan bütün qorunan əmanətlər, məbləğindən asılı olmayaraq, bank fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığa (lisenziyaya) malik olan Fondun iştirakçı bankları tərəfindən üç il müddətində tam sığortalanır.

## *Qorunan əmanətlər üzrə faiz dərəcələrinə yuxarı hədlərin qoyulması bankların dayanıqlı fəaliyyətinin təşviq edilməsi və stimullaşdırılmasıdır*

Himayəçilik Şurasının 1 mart 2016-cı il tarixli növbədənkənar iclasında qəbul olunmuş qərara əsasən isə 1 mart 2016-cı il tarixindən etibarən xarici valyutada qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi 3%, milli valyutada qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi 12% müəyyən edilmişdir.

İqtisadçı ekspert Samir Əliyev əmanətlərin tam sığortalanmasını və onların vergidən azad olunmasını vaxtında atılmış addım hesab edir: «Son aylar əhalinin banklara və milli valyutaya etibarının azalması ona gətirib çıxardı ki, kütləvi şəkildə əmanətlər ya dollarlaşdı, ya da banklardan çıxarıldı. Vəziyyətin belə davam etməsi, üstəgəl az qala bank faizləri ilə rəqabət aparacaq faizlə istiqrazların buraxılması əmanət bazarının cəlbediciliyini azaltmaqla yanaşı, bank sektorunu çətin vəziyyətə saldı. Ona görə də indiki məqamda əmanətlərin tam sığortalanmasına zərurət yaranmışdı».

Bank mütəxəssisi Bəxtiyar Məmmədov bildirmişdir ki, qanunun, həmçinin qeyd edilən qərarın açıqlaması bundan ibarətdir ki, əgər hər hansı fiziki şəxs Azərbaycan Respublikasında banklara əmanət yerləşdirərsə, bu əmanət dövlət tərəfindən sığortalanmış olur, gələcəkdə əmanət yerləşdirilmiş bank müflis olarsa belə, banka əmanət yerləşdirmiş fiziki şəxs öz əmanətlərini Əmanətlərin Sığortalanması Fondundan ala biləcək. Başqa sözlə, bu qanun bankların hər hansı birinin hətta müflis olması halında belə, əmanətlərin qaytarılmasına dövlət tərəfindən zəmanət verilməsi deməkdir. Mütəxəssis bildirmişdir ki, qanun növbəti üç il müddətində qüvvədə olacaqdır. Lakin burada bəzi məhdudiyyətlər də vardır: «Əmanətlərin qorunan əmanət kimi qəbul edilməsi üçün xarici valyutada yerləşdirilmiş əmanətin illik faiz dərəcəsi 3%-dən, milli valyutada yerləşdirilmiş əmanətin illik faiz dərəcəsi 12%-dən artıq olmamalıdır. Qeyd edilən məhdudiyyətlər də əslində banklara əmanət yerləşdirilməsində əmanətçilərin maraqlarını qorumağa yönəldilmiş addımdır. Əvvəllər bəzi hallarda banklar yüksək faizlə əmanət cəlb edirdi ki, bu da sonradan rəqabət mühiti gücləndikcə və kreditlər üzrə faiz dərəcələri aşağı endikcə bankın gəlirlərinin azalmasına səbəb olurdu və bu halda bəzən banklar zərərə uğrayaraq kreditorlar qarşısında öhdəliklərini yerinə yetirməyə çətinlik çəkirdi. Qorunan əmanətlər üzrə faiz dərəcələrinə yuxarı hədlərin qoyulması bankların dayanıqlı fəaliyyətinin təşviq edilməsi və stimullaşdırılmasıdır. Qanunun qəbul edilməsi ilə baş verən daha bir əhəmiyyətli məqam banka yerləşdirilən əmanətlərin məbləği ilə bağlıdır. Əvvəllər isə yalnız 30.000 manatadək olan əmanətlər sığortalanırdı. Bundan sonra yerləşdirilmiş əmanət, məbləğindən asılı olmayaraq, 100 faiz həcmində sığortalanır, əmanətçi sığorta üçün heç bir vəsait ödəmir».

**Fəxriyyə İKRAMQIZI**

# Sintetik uçotun aparılması ilə bağlı yeni qayda

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 18 yanvar 2016-cı il tarixli Q-02 nömrəli qərarı ilə «Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması Qaydası»na əsasən, müəssisə və təşkilatlarda tətbiq edilən memorial order formasının praktik misallar üzərində doldurulmasının davamını diqqətinizə çatdırırıq.

Qaydanın 3.10-cu bəndində göstərilir ki, aparılmış maliyyə-təsərrüfat əməliyyatlarının çoxluğundan asılı olaraq müəyyən edilmiş memorial-orderlər üzrə ay ərzində yalnız bir memorial order tərtib olunduğu halda, yığım cədvəlləri tərtib edilmir. Bu zaman memorial orderlər üzrə məlumatlar Baş kitabda uçota alınır. Bizim misal üzrə bank əməliyyatlarının uçotu məqsədilə 1 memorial order tərtib olunub. Ona görə də yığım cədvəlini hazırlamadan (yığım cədvəlinin tərtib olunmasına ehtiyacın yaranmadığına görə) tərtib etdiyimiz 2 nömrəli memorial orderdəki məlumatlar birbaşa Baş kitaba köçürülür. Belə ki, bizim misal üzrə tərtib olunmuş 2 nömrəli memorial orderlərin «C» hissəsində qeyd olunan hesabların (subhesabların) debeti və krediti üzrə aylıq dövriyyələr aşağıdakı kimi Baş kitabda uçota alınır.

Baş kitabın «yığım cədvəli (memorial order) üzrə sıra nömrəsi və aylar» sütununda memorial orderin sıra nömrəsi və onun tərtib edildiyi müvafiq ay göstərilir. Baş kitabın «yığım cədvəli (memorial order) üzrə cəmi məbləğ» sütununda memorial orderin «C» hissəsində göstərilmiş cəmi məbləğ əks etdirilir. Baş kitabın «Sintetik hesablar (subhesablar) üzrə dövriyyələr» sütunlarında memorial orderin «C» hissəsində göstərilmiş hesabların (subhesabların) debeti və krediti üzrə dövriyyələri əks etdirilir. Baş kitabın «Cəmi» sətirlərində memorial orderə (orderlərə) əsasən toplanmış yekun məbləğlər hesablanılır.

«Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması Qaydası»na 3 nömrəli əlavə

______________________________
(təşkilatın adı)

**Baş kitab**
**yanvar 2016-cı il üçün**

*(manatla)*

| Yığım cəvəli (memorial order) üzrə | | Yığım cəvəli (memorial order) üzrə cəmi məbləğ | Sintetik hesablar (subhesablar) üzrə məbləğlər | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | 211 Sintetik hesabın (subhesabın) nömrəsi | | 221 Sintetik hesabın (subhesabın) nömrəsi | | 222 Sintetik hesabın (subhesabın) nömrəsi | |
| № | Aylar | | Debet | Kredit | Debet | Kredit | Debet | Kredit |
| 1 | | | | | | | | |
| 2 | Yanvar | 41778,50 | | 18000,00 | | 3000,00 | 26000,00 | 15778,50 |
| 3 | | | | | | | | |
| | | | | | | | | |
| **CƏMİ** | | **41778,50** | | **18000,00** | | **3000,00** | **26000,00** | **15778,50** |

*(Cədvəlin davamı)*

| Sintetik hesablar (subhesablar) üzrə məbləğlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 521 Sintetik hesabın (subhesabın) nömrəsi | | 522 Sintetik hesabın (subhesabın) nömrəsi | | 531 Sintetik hesabın (subhesabın) nömrəsi | | 533 Sintetik hesabın (subhesabın) nömrəsi | |
| Debet üzrə | Kredit üzrə | Debet | Kredit | Debet | Kredit | Debet | Kredit |
| | | | | | | | |
| 500,00 | | 800,00 | | 10000,00 | | 3500,00 | |
| | | | | | | | |
| **500,00** | | **800,00** | | **10000,00** | | **3500,00** | |

*(Cədvəlin davamı)*

| Sintetik hesablar (subhesablar) üzrə məbləğlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 535 Sintetik hesabın (subhesabın) nömrəsi | | 538 Sintetik hesabın (subhesabın) nömrəsi | | 543 Sintetik hesabın (subhesabın) nömrəsi | | ____ Sintetik hesabın (subhesabın) nömrəsi | |
| Debet üzrə | Kredit üzrə | Debet | Kredit | Debet | Kredit | Debet | Kredit |
| | | | | | | | |
| 700,00 | | 278,50 | | | 5000,00 | | |
| | | | | | | | |
| **700,00** | | **278,50** | | | **5000,00** | | |

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Əhliman Qasım oğlu Qasımov yanacaq məhsullarının və tikinti materiallarının alqı-satqısı ilə məşğul olurdu. Müxtəlif vaxtlarda vergi orqanlarında «Mars Ko LTD», «Elmar», «Cəlil» və «Kənan H.Ə» adlı MMC-ləri qeydiyyatdan keçirmişdi. Lakin o, öz işini qanunçuluğun tələbləri səviyyəsində qurmağa əhəmiyyət vermədiyi üçün bunun qarşılığını ağır ödəməli oldu.

Vergi orqanları Ə.Qasımovun rəhbəri olduğu müəssisələrdə ayrı-ayrılıqda səyyar yoxlamalar həyata keçirərkən məlum oldu ki, o, əldə etdiyi gəlirlərdən vergi ödəməyərək dövlət büdcəsinə çatmalı olan xeyli məbləğdə vəsaiti mənimsəyib. «Mars Ko LTD» MMC-də səyyar yoxlaması zamanı 40 min manatdan çox vergi məbləğinin mənimsənildiyi aşkar edildi. Onun bu əməlləri üzrə toplanmış materiallar əsasında Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində Cinayət Məcəlləsinin 213.1 və 213.2.2-ci maddələri ilə cinayət işi açıldı.

Ə.Qasımovun vergi cinayətləri bununla da bitmir. Araşdırmalar nəticəsində onun rəhbərlik etdiyi «Elmar», «Cəlil» və «Kənan H.Ə» MMC-lərdə də böyük məbləğdə vergilərin dövlət büdcəsindən yayındırılması halları aşkar olundu. Müəyyən edildi ki, dövlət büdcəsindən yayındırılmış vergilərin məbləği ümumilikdə 402.183,46 manat təşkil edir. Sahibkarın əməlləri Vergi Məcəlləsinin 16.1.1, 16.1.4, 16.1.6, 53.1, 72, 77.3, 78.1, 82.3, 83.4, 85.2, 107-109 və 180-ci maddələrinin tələblərinin pozulması halları kimi qiymətləndirildi.

Beləliklə, təqsirləndirilən şəxs qismində dindirilən Ə.Qasımov CM-in 213.1 və 213.2.2 maddələri ilə elan olunmuş ittihamda özünü təqsirli bilərək vergi ödənişlərindən mənimsədiyi vəsaitləri şəxsi məqsədləri üçün istifadə etdiyini bildirdi. Məlum oldu ki, o, müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin uçotunun aparılması vəzifəsini öz üzərinə götürərək vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsi üzrə əməliyyatları təkbaşına həyata keçirib, bu zaman vergi orqanlarına təqdim olunan bəyannamələrin gəlirlər və xərclər bölmələrini tamamilə saxtalaşdırıb.

Şahid qismində dindirilən şəxslərin ifadələri, alqı-satqı müqavilələri və bank köçürmələri, çeklər, mühasibat sənədləri, məhkəmə-mühasibat ekspertizasının rəyləri və digər maddi sübutlar əsasında onun törətdiyi cinayət əməlləri tam sübuta yetirildi.

Yasamal Rayon Məhkəməsinin hökmü ilə Qasımov Əhliman Qasım oğlu 2 il 6 ay müddətində sahibkarlıq fəaliyyəti göstərmək hüququndan da məhrum edilməklə 5 il müddətinə həbs cəzası aldı.

**ELBRUS**

vergi təqvimi

| MART | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | **20** |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | **27** |
| **28** | 29 | 30 | **31** | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

28 mart - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

31 mart - «1», «2» və «5».

**«1» - Gəlir vergisi:** Gəlir vergisi üzrə hesabat dövrü təqvim ilidir. Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb edilən gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına bəyannamə verir və həmin vaxtadək illik gəlir üzrə son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) gəlir vergisini dövlət büdcəsinə ödəyirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcəsi ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman mərc oyunları üzrə):** İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməyə borcludurlar.

**«2» - Mənfəət vergisi:** Mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Mənfəət vergisinin ödəyicisi hesab edilən rezident müəssisələr, habelə Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan, vergiyə cəlb olunan gəliri Azərbaycan mənbəyindən olan və bu gəlirindən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) vergini ödəyir və qeydiyyatda olduğu vergi orqanına bəyannamə təqdim edir.

Bələdiyyə mülkiyyətində olan müəssisələr mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə), digər müəssisələr isə dövlət büdcəsinə ödəyirlər.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Müəssisənin əmlak vergisi üçün hesabat dövrü təqvim ili sayılır. Əmlak vergisinin ödəyicisi olan müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edir və vergini həmin müddətədək son hesablama aparmaqla (cari ödəmələr nəzərə alınmaqla) dövlət büdcəsinə ödəyir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə):** Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına təqdim etməyə borcludur.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

# Sahibkarlar məlumatlandırılır və güzəştli kreditlərlə təmin olunur

Ölkəmizdə yaranmış yeni iqtisadi şəraitə uyğun olaraq sahibkarlığın inkişafına dəstək məqsədi ilə işgüzar forumlar keçirilir, güzəştli kreditlərin verilmə mexanizmləri izah olunur. Bunlarla yanaşı, ayrı-ayrı ərazilərdə potensial biznes imkanları, real layihələr müəyyən edilir. Sahibkarların maarifləndirilməsi və onlara dövlət tərəfindən maliyyə dəstəyinin göstərilməsi məqsədilə təkcə ötən il 46 işgüzar forum (39-u regionlarda, 7-si isə Bakı şəhərinin qəsəbələrində) keçirilib, həmin tədbirlərdə 4000-dən çox sahibkar iştirak edib.

Artıq bu il mart ayının ilk həftəsindən başlayaraq, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən işgüzar forumlara start verilib. 100-ə yaxın sahibkarın iştirakı ilə ilk işgüzar forum Bərdə rayonunda keçirilib. Forum çərçivəsində rayonun iqtisadi potensialının reallaşdırılması istiqamətində sahibkarlarla müzakirələr aparılıb, rayonun iqtisadi potensialına uyğun olaraq müasir istixana kompleksinin, intensiv bağçılıq təsərrüfatının, meyvə-tərəvəz emalı müəssisəsinin, ixtisaslaşdırılmış «yaşıl market»in, 3 ulduzlu hotelin, cins heyvandarlıq və meyvəqurutma müəssisələrinin yaradılması üzrə hazırlanmış nümunəvi investisiya layihələri və metodiki materiallar sahibkarlara təqdim olunub. Forum çərçivəsində müvəkkil kredit təşkilatları vasitəsilə Bərdə və ətraf rayonlarda fəaliyyət göstərən 69 sahibkarlıq subyektinin investisiya layihəsinin maliyyələşdirilməsinə 1,6 milyon manat güzəştli kredit verilib. Kreditlər əsasən heyvandarlıq, biyan kökü istehsalı və emalı və s. sahələrin inkişafına yönəldiləcək.

Xaçmaz şəhərində keçirilən növbəti işgüzar forumda isə güzəştli kreditlərin alınması mexanizmi barədə sahibkarlara ətraflı izahatlar verilib, rayonda həyata keçirilməsi məqsədəuyğun hesab edilən nümunəvi layihələr təqdim olunub, sahibkarların investisiya layihələri maliyyələşdirilib. Forum çərçivəsində Xaçmaz rayonunun iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan süd emalı zavodunun, müasir istixana kompleksinin, intensiv bağçılıq və cins heyvandarlıq təsərrüfatlarının, ixtisaslaşdırılmış «yaşıl market»in və şirniyyat məhsullarının istehsalı müəssisəsinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilib, kiçik həcmli investisiya layihələrinin ümumi dəyərinin 100%-dək hissəsinin dövlətin güzəştli kreditləri hesabına maliyyələşdiriləcəyi bildirilib, sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanılıb. Qeyd olunub ki, indiyədək Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 2130 investisiya layihəsinin maliyyələşdirilməsinə 154 milyon manat güzəştli kredit verilib, digər sahələrlə yanaşı, müasir texnologiyaların tətbiqinə əsaslanan logistik mərkəzlərin, taxıl anbarlarının, quşçuluq fabrikinin, çörək zavodunun, istixana, üzümçülük, intensiv bağçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı, tara, tikinti materialları istehsalı müəssisələrinin yaradılması və s. sahələr üzrə investisiya layihələri maliyyələşdirilib, 10 mindən çox yeni iş yerinin açılması imkanı yaradılıb. İşgüzar forum çərçivəsində Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən 52 sahibkara 580 min manat güzəştli kredit verilib. Kreditlər heyvandarlıq, bağçılıq, quşçuluq, fındıq emalı, arıçılıq, plastik qapı-pəncərə istehsalı, turizm sahələrinin inkişafına yönəldiləcək. Bu kreditlərin reallaşdırılması hesabına 70-dən çox yeni iş yeri açılacaq.




*İndiyədək Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 2130 investisiya layihəsinin maliyyələşdirilməsinə 154 milyon manat güzəştli kredit verilib*

Qeyd edək ki, Sahibkarlığa kömək Milli Fondu tərəfindən kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanması və satışı üzrə tutumu 330,4 min ton olan 52 logistik mərkəzin və ümumi tutumu 352 min tona yaxın olan 23 taxıl anbarı kompleksinin tikintisinə 191,8 milyon manat kredit verilib. Bundan əlavə, Fonddan ayrılmış 58,7 milyon manat kredit hesabına illik emal gücü 120 min ton olan 16 meyvə-tərəvəz emalı müəssisəsi yaradılıb.

**AYTƏN**

beynəlxalq panoram

# Belarusda 15-dən artıq vergi güzəşti ləğv edilib

Vergilər və yığım nazirinin müavini Ella Seliskaya bildirmişdir ki, 2016-cı ildə vergi qanunvericiliyində edilmiş bütün yenilikləri şərti olaraq dörd qrupa bölmək olar. İstiqamətlərdən biri büdcə gəlirlərinin konsolidasiyası məqsədilə vergi güzəştlərinin ləğvidir. Ümumilikdə, 15-ə yaxın vergi güzəşti ləğv olunmuşdur. 2016-cı ildən belə gəlirlər 4% dərəcə ilə vergiyə cəlb olunur. Bundan başqa, əhali üçün enerji və qaz təchizatı təşkilatlarının xidmətlərinə ƏDV üzrə güzəştlər ləğv edilib.

Qeyd olunub ki, cari il vergitutmanın təkmilləşdirilməsi üzrə işlərin daha bir istiqaməti vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarının stimullaşdırılması biqini qeyd etmək lazımdır. 2016-cı il iyulun 1-dən elektron hesab-fakturalar mexanizmi tətbiq olunacaq. ƏDV inzibatçılığının yeni mexanizmi vergi orqanlarına vergi ödəyiciləri tərəfindən həyata keçirilən, vergiyə cəlb olunan bütün əməliyyatlara operativ nəzarət etməyə imkan yaradacaq».

Dördüncü qrup dəyişikliklərə toxunan E.Seliskaya bildirib



Ölkənin Maliyyə Nazirliyinin qiymətləndirmələrinə görə, 2014-cü il ərzində vergi güzəştlərinin məbləği təxminən 35 trilyon belarus rublu olub ki, bu da ÜDM-in 4,5%-ni təşkil edir. Nazir müavini bildirib ki, dövlət başçısı tərəfindən verilmiş tapşırıqları nəzərə alaraq, ötən il vergi güzəştləri təftiş edilib. Öz aktuallığını itirən və ya səmərəliliyini sübut etməyən güzəştlər ləğv olunub. Mərc oyunları sahəsində də güzəştlər ləğv edilib. Bu, qumar oyunlarının təşkilatçılarından, kazino, bukmeykerlərdən uduşlar alan vətəndaşların gəlirlərinə aiddir. olub: «Söhbət gəlir və əmlaka görə əlavə vergi güzəştləri verilmiş azad iqtisadi zonaların ödəyicilərindən gedir. Bundan başqa, elmi tədqiqat institutları, elmi texnologiya parkları üçün də fərdi güzəştlər nəzərdə tutulur. Ekoloji verginin ödəyiciləri üçün onun toplanması mexanizmlərinin daha da sadələşdirilməsi nəzərdə tutulur».

Nazir müavininin sözlərinə görə, üçüncü istiqamət vergi inzibatçılığının gücləndirilməsi tədbirləri olacaq: «Burada əlavə dəyər vergisinin ödənilməsinə nəzarət üzrə yeni mexanizmin tətki, «vergi sistemimizi daha ədalətli etməyə imkan verən və bununla da intizamlı vergi ödəyicisi üçün müəyyən üstünlüyü təmin edəcək mexanizmlərin yaradılması üzərində işləyirik. Bu ildən Belarus ödəyicilərinin qarşılıqlı surətdə asılı olan şəxslərlə, həmçinin offşor zonaların ödəyiciləri ilə bağladığı sazişlərə nəzarəti gücləndirməyi planlaşdırırıq. Əgər belə sazişlərin vergi ödəmələrindən yayınmaq məqsədilə imzalanması öz təsdiqini taparsa, o zaman vergi orqanları həmin şəxslərin gəlirlərinə vergi tətbiq edəcək».

# Vergi və gömrük məcəllələri birləşdiriləcək

Qazaxıstan hökuməti vahid Gömrük və Vergi Məcəlləsi hazırlamağı təklif etmişdir. Milli iqtisadiyyat naziri Yerbolat Dosayevin sözlərinə görə, bununla bağlı işlərə 2016-cı il ərzində başlamaq planlaşdırılır. Bununla da ölkədə vergitutmanın aksenti istehsaldan son istehlaka keçiriləcək. Büdcə siyasətinin əsas prioriteti isə qənaət olacaq: «Büdcə siyasətinin əsas prioriteti büdcə resurslarına qənaət, Milli Fondun vəsaitlərinin rasional istifadəsi və dövlət xərclərinin səmərəliliyinin artırılması olmalıdır. Əsaslı xərclərin xidmət modelinə keçməklə dövlət büdcəsinin yükünün azaldılması təklif edilir. Vergi və büdcə sferasında təşəbbüslərin uğurla reallaşdırılması üçün vahid Vergi və Gömrük Məcəlləsinin, yeni Büdcə Məcəlləsinin hazırlanması təklif edilir».

Nazir qeyd etmişdir ki, ölkə prezidentinin tapşırıqlarına və «100 addım» Milli Fəaliyyət Planına uyğun olaraq, vergi sistemində ciddi islahatlar aparılacaq. Onun sözlərinə görə, daha bir prioritet istiqamət struktur islahatları və iqtisadiyyatın diversifikasiyası olacaq: «Servis-sənaye siyasətinin səmərəliliyini artırmaq məqsədilə aksenti vasitəli sənaye siyasətinə keçirmək təklif edilir. Bu siyasətdə başlıca rolu özəl sektor oynayacaq. Ünvanlı dövlət dəstəyi yalnız yüksək ixracat potensialı olan və yüksək əlavə dəyər yaradan müəssisələrə göstəriləcək. İnvestisiyaların cəlb edilməsi üçün əhəmiyyətli amillərdən biri istehsalın Çindən Qazaxıstana daşınması üzrə birgə investisiya proqramları olacaq. Bu isə yalnız investisiyaların cəlb edilməsi üçün deyil, həm də uzunmüddətli sabit investisiya inkişafı üçün əsas olacaq».

# Xarici internet bağlamalarına vahid vergi

Rusiyanın Federal Gömrük Xidmətinin (FGX) rəis müavini Tatyana Qolendeyeva bildirmişdir ki, xaricdən gətirilən və dəyəri 22-150 avro arasında olan internet bağlamalarına 10-15 avro icbari yığımın tətbiqi planlaşdırılır. Onun sözlərinə görə, Rusiya öz təkliflərinin Avrasiya İqtisadi Birliyi (AİB) səviyyəsində unifikasiyasına nail olmağa çalışır. Əgər AİB çərçivəsində kompromis əldə edilməsə, rəsmi Moskva yığımı milli səviyyədə tətbiq etməyi nəzərdə tutur. O xatırlatmışdır ki, artıq bu təcrübədən istifadə edən dövlətlər var. Məsələn, Belarusda fiziki şəxslər üçün poçt göndərişlərində rüsumsuz göndərilən mallara müəyyənləşdirilmiş normalar AİB-in ümumi limitlərindən aşağıdır. Rusiya internet sifarişləri üçün AİB-də ümumi normaların müəyyən edilməsini təklif edir.

Gömrük idarəsinin rəis müavini qeyd etmişdir ki, Rusiya xarici internet mağazalarından dəyəri 22 avroya qədər olan bağlamaların gömrük rüsumu olmadan, dəyəri 22 avrodan 150 avroya qədər olan mallardan vahid dərəcə üzrə - 10-15 avro tutulmasını təklif edir. 150 avrodan bahalı bağlamalar isə vətəndaşlara 10-15 avro, üstəgəl gömrük dəyərinin 30%-i həcmində əlavə yığıma başa gələcək. Ötən ilin sonunda AİB rüsumsuz internet-ticarətin həddini 1000 avrodan 150 avroya qədər azaldılması ilə bağlı təklifi dəstəkləməyib. Bundan başqa, rüsumsuz bağlamaların ümumi çəkisinin aylıq 31 kq-dan 10 kq-ya qədər azaldılması ilə bağlı təklif də müzakirələrə daxil edilib. 10 kiloqrama qədər bağlamalar üçün isə 25 avro həcmində sabit yığım tətbiq etmək planlaşdırılır.

Hazırda Rusiyada şəxsi istifadə üçün bir ay ərzində dəyəri 1000 avroya və çəkisi 31 kq-ya qədər bağlamaları rüsumsuz sifariş vermək və almaq olar. Bu limit keçildikdə isə müəyyən edilmiş hədlərdən artıq dəyərin 30%-i həcmində rüsum ödəmək lazım gələcək (hər kq üçün 4 avrodan az olmayaraq).

Rüsumsuz internet ticarəti limitinin azaldılması məsələsi 2014-cü ildə Rusiya hökumətinin müzakirəsinə çıxarılmışdı, lakin o zaman lazımi dəstək tapmamışdı. «East-West Digital News»un məlumatına görə, ötən il təxminən 15 milyon rusiyalı ən azı bir dəfə internet vasitəsilə xaricdən alış-veriş etmişdir. Bu alış-verişin yarısı isə Çin internet şəbəkə mağazalarının payına düşür.

maraqlı

## Vergilərin ödənilməməsinə görə pasportlar ləğv ediləcək

ABŞ Konqresində dövlətə vergi ödəməyən vətəndaşın pasportunu ləğv etməyə ixtiyar verən yeni qanun layihəsi müzakirə edilir. Bu qanun məmurlara dövlətə borclu olan şəxslərə yeni pasport təqdim etməməyə icazə verəcək.

Dövlətə 50.000 dollar həcmində ödənilməmiş vergi, cərimə və faiz borcu olan şəxslər pasportlarından məhrum edilməlidirlər. Vergitutma məsələləri üzrə Birləşmiş Komitənin qiymətləndirməsinə görə, bu addım növbəti 10 il ərzində ölkəyə təxminən 398 milyon dollar həcmində vəsaitə qənaət etməyə imkan verəcək. Pasportu olmayan şəxslər ölkə xaricinə çıxa bilməyəcəklər. Yalnız xeyriyyə missiyaları tərkibində səyahət edən ABŞ vətəndaşlarına müvəqqəti çıxışa icazə verilə bilər.

Maraqlıdır ki, yeni qanun həm də xaricdə müvəqqəti və ya daimi əsaslarda yaşayan amerikalılara da şamil ediləcək. Həmin şəxslər üçün pasportun ləğv edilməsi ciddi neqativ nəticələrə gətirib çıxara bilər. Pasport olmadan xaricdə yaşayan ABŞ vətəndaşları bank əməliyyatlarını həyata keçirə, mehmanxanalarda qeydiyyatdan keçə, uşaqlarını xarici ölkələrə təhsil üçün göndərə bilməcəyəcəklər. ABŞ vergi xidməti təkcə 2014-cü ildə xaricdə yaşayan amerikalı vətəndaşlara borclarına görə 855 min bildiriş göndərmişdir.

## Xəbər lenti

**Dünya Səhiyyə Təşkilatı**nın uşaqlarda piylənmə məsələləri ilə məşğul olan komissiyasının hesabatında beş yaşadək uşaqlarda kökəlmə meylinin aradan qaldırılması məqsədi daşıyan bir sıra tövsiyələr irəli sürülmüşdür. Onların arasında tərkibində şəkər olan içkilərə effektiv vergi dərəcəsinin tətbiqi də var.

**Niderland** hökumətinin Avropa İttifaqındakı nümayəndəliyinin təqdim etdiyi plana əsasən, faizlərə və royaltilərə minimal effektiv vergi dərəcələrinin tətbiqi ilə bağlı yaxın aylarda siyasi razılaşma əldə ediləcəyi gözlənilir.

**Birləşmiş Ərəb Əmirlikləri** uzun çəkən danışıqlardan və müzakirələrdən sonra İran Körfəzi Əməkdaşlıq Şurasına üzv ölkələr arasında ƏDV tətbiq edən ilk dövlət olacaq. Bu vergi 2018-ci ilin yanvarından tutulmağa başlanacaq.

**Çin** hökuməti vergitutmanın strukturunun optimallaşdırılması və vergi yükünün azaldılması məqsədilə ilk dəfə olaraq iqtisadiyyatın bütün sektorlarında korporativ vergini əlavə dəyər vergisi ilə əvəz edəcək. Bununla da illik vergi yükünün ümumilikdə 76,64 milyard dollar azalacağı gözlənilir.

**ABŞ**-ın hüquq-mühafizə orqanları vergi ödəyicilərinin öz gəlirləri barədə bəyannamə təqdim etdikləri dövrdə bank məlumatlarının oğurlanması ilə bağlı cinayətlərin və fırıldaqların kəskin artması ilə üzləşirlər. Məlum olmuşdur ki, bu dövrdə minlərlə vətəndaşın fərdi məlumatları cinayət yolu ilə ələ keçirilir.

qalmaqal

## «Porto»nun keçmiş prezidentinin başı bəladadır

Portuqaliyanın məşhur «Porto» futbol klubunun keçmiş prezidenti, 75 yaşlı Manuel Damasio həbs olunmuşdur. O, çirkli pulların yuyulmasında, beynəlxalq işgüzar münasibətlərlə əlaqədar korrupsiyada və vergi fırıldaqçılığında ittiham edilir. O, 2014-cü ildən başlanmış cinayət işinin təhqiqatı çərçivəsində saxlanılmışdır.

Xatırladaq ki, Manuel Damasio 1994-cü ilin yanvarından 1997-ci ilin oktyabrınadək «Benfika» klubunun prezidenti olmuşdur.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Cəfəngiyyat, məntiqi olmayan; 2.Şahbuz rayonunda mineral su mənbəyi; 3.Müxtəlif sosial qruplarda (professional, yaş və s.) işlədilən yeni mənalı xüsusi sözlər; 4.Geoloji termin. İkinci kaynozoy dövrünün birinci epoxası; 5.Atla hərəkətə gətilən muzdlu nəqliyyat vasitəsi - Qərbi Avropada avtomobildən əvvəl taksi kimi işlədilib; 6.Musiqi termini. Musiqi alətində ifa zamanı bir səsdən digərinə yumşaq (pauzasız) keçid; 9.Kimyəvi element; 13.Mesopotamiya və Yaxın Şərqin iki əsas çayından biri olan Dəclənin qədim yunan dilində adı; 15.Döş qəfəsində cüt və yastı qövc şəkilli sümük; 16.Hərbi rütbə; 17.Niderlandda şəhər; 18.İncəsənət adamlarına verilən ümumi ad; 20.Avropa, Asiya və Amerikanın şimalında çətin keçilən iynəyarpaqlı meşələr zonası; 21.«Xəyyam» pyesinin müəllifi. **Soldan sağa:** 1.Yunan mütəfəkkiri. Milet məktəbinin nümayəndəsi; 5.Məməlilər sinfinin xortumlular dəstəsindən heyvan; 7.Qış Olimpiya idman növü; 8.Azərbaycan şairi, yazıçı, dramaturq, publisist, pedaqoq, ədəbiyyatşünas, tərcüməçinin adı; 10.Hindistanda şəhər; 11.Nazik bağırsağın iltihabı; 12.Buryatiyada ulus; 14.Portuqaliyada şəhər; 19.Karib dənizində ada; 21Azərbaycanın xalq şairinin adı; 22.Ərəbcə hörmət ifadəsini bildirən titul. «Lider» və ya «vali» mənalarını verir; 23.Benqal, Bihara və Orissanın 1740-1756-cı illərdə nəvvabı; 24.Musiqi notlarından biri; 25.Komik rolları ifa edən aktyor.



«Novruz sevinci». Vaqif Ucatay

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kubist; 2.Bilyard; 3.Liard; 4.Eqoizm; 5.Qəmər *(Almaszadə)*; 6.Vidadi; 9.Uqra; 13.Kosa; 15.Qallium; 16.İmişli; 17.Undina; 18.Sprayt; 20.Külçə; 21.Tiara. **Soldan sağa:** 1.Kabalyero; 5.Qov 7.Bulqakov *(Mixail)*; 8.Amid *(döyüşü)*; 10.Slayd; 11.Ziqfrid; 12.Edikt; 14.Haaqa; 19.Mokasin; 21.Tulup; 22.Şelf; 23.Piramida; 24.İlə; 25.Stalaqmit.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 9000

idman

# Qadın velosipedçimizdən «Rio-2016»ya iki lisenziya

Azərbaycanın trek velosipedi üzrə qadınlardan ibarət yığma komandasının üzvü Olqa İsmayılova bu ilin avqustunda Rio de Janeyroda keçiriləcək 31-ci Yay Olimpiya Oyunlarına 2 lisenziya əldə edib. Bununla bağlı Beynəlxalq Velosipedçilər İttifaqı (UCI) tərəfindən Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinə və Azərbaycan Velosiped İdmanı Federasiyasına təsdiq məktubu göndərilib. Qadın velosipedçimiz 4 illiyin zirvə yarışında ölkəmizi həm sprint, həm də keyrin yarışlarında təmsil edəcək.

Qeyd edək ki, Beynəlxalq Velosipedçilər İttifaqının reqlamentinə əsasən, Yay Olimpiya Oyunlarından əvvəlki 2 il ərzində (2014-2015 və 2015-2016-cı illər mövsümü) velosipedçilər dünya və Avropa çempionatları, Dünya kuboku yarışları da daxil olmaqla, iştirak etdikləri bütün turnirlərdə olimpiadaya lisenziya xalları toplayırlar. Bu müddət ərzində bir sıra yarışlarda uğurla çıxış edən Olqa İsmayılova bununla da həm sprint, həm də keyrin növündə olimpiadada iştirak hüququ əldə edən 27 velosipedçi sırasına düşməyi bacarıb.

Xatırladaq ki, bunadək şose velosipedçimiz Maksim Averin də «Rio-2016» Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.





# Güləş üzrə Avropa çempionatına yekun vuruldu

Latviyanın paytaxtı Riqa şəhərində güləş üzrə Avropa çempionatı başa çatıb. Azərbaycan yığma komandaları çempionatı ümumilikdə 2 qızıl, 2 gümüş və 4 bürünc medalla başa vurub.



Çempionatın yunan-Roma güləşi üzrə yarışlarında güləşçilərimiz 2 bürünc medal qazanıblar. Kamran Məmmədov və Həsən Əliyev fəxri kürsünün üçüncü pilləsində qərarlaşıblar. Medalların sayına görə yunan-Roma güləşçilərimiz komanda hesabında üçüncü pillədə yer alıblar.

Avropa çempionatında 2 qızıl və 1 bürünc medal qazanan qadın güləşçilərimiz isə komanda hesabında dördüncü yerin sahibi olublar. Qadın güləşçilərimizin heyətində Mariya Stadnik və Nataliya Sinişin qızıl, Yuliya Ratkeviç isə bürünc medal əldə edib.

Çempionatı 2 gümüş (Cəbrayıl Həsənov və Aleksandr Qostiyev) və 1 bürünc (Hacı Əliyev) medalla tamamlayan sərbəst güləş üzrə Azərbaycan yığması isə komanda hesabında 5-ci sırada qərarlaşıb.

## «Böyük İpək Yolu»nda böyük qələbə

Bakıda təşkil olunan böyüklər arasında boks üzrə «Böyük İpək Yolu» turniri yekunlaşıb. Turnirdə mübarizə aparan boksçularımızdan Cavid Çələbiyev (56 kq), Lorentso Sotomayor (64 kq), Kamran Şahsuvarlı (75 kq) və Teymur Məmmədov (81 kq) final görüşlərində rəqiblərindən üstün olaraq qalib gəliblər. Bununla da boksçularımız turnirin son günündə 4 qızıl medal əldə ediblər.

## «Synergy Baku»dan uğurlu sonluq

Azərbaycanın kontinental velosiped komandası «Synergy Baku»nun Xorvatiyada keçirilən «İstrian Spring Trophy» veloyürüşündə mübarizəsi başa çatıb. Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) 2.2 kateqoriyalı yarışının sonuncu - üçüncü mərhələsi komandamızın üzvü Matey Müqerlinin qələbəsi ilə yekunlaşıb. Yürüşün 146 kilometrdən ibarət bu bölümdə velosipedçimiz finiş xəttini hamıdan tez keçib - 3 saat 9 dəqiqə 20 saniyə. M.Müqerli yarışın birinci mərhələsində 2-ci, 2-ci mərhələsində isə 5-ci olmuşdu. Bu amil təmsilçimizə ümumi təsnifatda liderdən cəmi 3 saniyə geri qalmaqla yarışı 3-cü pillədə bitirməyə imkan verib.

Qeyd edək ki, «Synergy Baku» bu yarışda Maksim Averin, Matey Müqerli, Kiril Pozdnyakov, Matiya Kvasina, Yannis Tamuridis və Samir Cəbrayılova təmsil olunub.



## Vəli Qasımov «Neftçi»də...

Azərbaycan futbolunun flaqmanı sayılan «Neftçi»nin öz meydanında «Qəbələ»yə 1:2 hesabı ilə uduzması baş məşqçi Əsgər Abdullayevin istefası ilə nəticələnib. Bu günlərdə komandanın «sükanı arxasına» klubun idman direktoru Vəli Qasımov gətirilib. Qeyd edək ki, karyerasında «Dinamo» (Moskva), «Spartak» (Moskva), «Real Betis», «Vitoriya» (Setubal) kimi klubların şərəfini qoruyan 48 yaşlı mütəxəssis 1992-ci ildə Rusiya premyer liqasında bombardir olmuşdu.

mozaika

## Zəif görənlər üçün yeni eynək

ixtira

Yaponiyanın «QD Laser» şirkəti təsviri skan edərək onu birbaşa gözün torlu qişasına proyeksiya edən eynək prototipi hazırlayıb. Şirkətin mühəndislərinin Tokio Universitetinin əməkdaşları ilə birgə hazırladıqları «torlu qişanın lazer skanı» adlanan innovativ texnologiya skan zamanı əldə olunmuş təsviri gözün torlu qişasına proyeksiya etməklə zəif görmə qabiliyyətli insanları göz əzələlərinin gərginliyindən xilas edəcək.

Hazırda «QD Laser» şirkəti Əczaçılıq Preparatları və Tibbi Qurğular Agentliyi ilə məsləhətləşmələr aparır. Bu ixtiranın əlavə edilmiş reallıq texnologiyasına malik tibbi qurğu kimi istehsalı məsələsi müzakirə olunur.

Əlavə edilmiş reallıq texnologiyasından istifadə edən kompüter qurğuları real vaxt rejimində vizual təsviri qəbul olunan obyektlər barədə virtual məlumatlarla tamamlanır. Əlavə edilmiş reallıq texnologiyası tibb, hərbi texnika, kompüter oyunları və mobil texnologiyalarda geniş tətbiq edilir.



## Qan təzyiqini salmağın ən sadə yolu

sağlam həyat tərzi

Yaşadığımız zəmanənin stresləri, oturaq həyat tərzi, ekoloji şəraitin fəsadları qan təzyiqini günümüzün aktual sağlamlıq probleminə çevirmişdir. Qan təzyiqi qəfildən yüksələndə onu idarə etmək üçün «qadin.az» saytı yüz illərdir sınaqdan keçmiş sadə bir üsul təqdim edir.




**1 və 2 nöqtələri arasında xətt**

Şəkildə gördüyünüz kimi, xətt qulağın qurtaracaq nöqtəsindən başlayır və boyuna kimi gedir. Barmaqların uclarını möhkəm sıxmadan bu xətt boyunca gəzdirin, proseduru başın hər iki tərəfində 10 dəfə təkrarlayın.

**3 nöqtəsi**

Şəkildə göründüyü kimi, barmaqlarınızın ucu ilə qulağın yumşaq hissəsindən 1 sm yuxarıda burun tərəfə yüngülcə masaj edin. Masaj zamanı rahat olmağa, ancaq xoş şeylər barədə fikirləşməyə çalışın.

Bu sadə hərəkətlər 5 dəqiqə müddətində qan dövranını yaxşılaşdırır və qan təzyiqi normal həddə düşür.

## Romada azərbaycanlı rəssamın sərgisi

incəsənət

İtaliyanın paytaxtı Romadakı məşhur «Spazio Evente Tirso» qalereyasında bu ölkədə yaradıcılıq fəaliyyətini davam etdirən azərbaycanlı rəssam Əli İsgəndərovun «Modus Operandi/2» layihəsi çərçivəsində «Sonsuzluğun fəlsəfəsi» adlı sərgisi açılıb.

Tanınmış italiyalı sənətkarlar Emiliano Kolletta ve Simone Camettanın kuratorluq etdikləri müasir konseptual janrda təşkil olunmuş sərgi izləyicilər tərəfindən maraqla qarşılanıb. Sərgidə nümayiş etdirilən əsərlər haqqında fikirlərini bölüşən İtaliyanın məşhur sənətşünası Klaudio Libero, tanınmış incəsənət xadimləri Maria Pina Bentivenqa, Federiko Landini və Davide Dormino həmyerlimizin yaradıcılıq dəst-xəttini, rəssamlıq məfkurəsini yüksək qiymətləndiriblər və ona bundan sonrakı fəaliyyətində uğurlar arzulayıblar.

Ə.İsgəndərov AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində Romada bu cür sərginin təşkilindən məmnunluğunu bildirib. Vurğulayıb ki, sərgisində sonsuzluq fəlsəfəsi dünyasının fenomenal xüsusiyyətləri qabarıq şəkildə izləyicilərə çatdırmağa çalışıb. Rəssam həyata keçirilən bu layihəni yaradıcılığının ən böyük nailiyyəti kimi dəyərləndirib. Sərgi bu ayın sonunadək davam edəcək.



Qeyd edək ki, həmyerlimiz İtaliyada indiyədək bir çox uğurlara imza atıb, bu ölkənin milli mükafatına layiq görülüb, Vitebro Bienalisnin qalibi və Catel beynəlxalq müsabiqəsinin finalçısı olub.

## «Xəzər dənizinin hidrometeorologiyası» atlası

tədqiqat

Kanadanın Sophia Publishing Group Inc. nəşriyyatı Azərbaycan Milli Elmlər Akademiyasının akademik H.Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov və İran İslam Respublikasının Xəzər Dənizi Tədqiqatları Mərkəzinin əməkdaşı Homayoun Xoşrəvanın «Xəzər dənizinin hidrometeorologiyası» atlasının elektron versiyasını nəşr edib.



İnstitutdan bildiriblər ki, atlasın giriş hissəsində Xəzər dənizi və onun hövzəsinin fiziki-coğrafi və iqlim xüsusiyyətləri haqqında ümumi məlumat, Azərbaycan Respublikasında Xəzər dənizinin tədqiqatlarının təşkili tarixi, bu sahədə işləyən elmi-tədqiqat institutları və dövlət təşkilatları, onların fəaliyyətinin istiqamətləri və s. barədə ətraflı məlumat verilir. İran İslam Respublikasında bu tədqiqatlar son zamanlarda başlasa da, artıq genişləndirilir.

Atlas üç fəsildən, 270 xəritədən ibarətdir. Birinci fəsildə Xəzərin sahil zonasının və dibinin geomorfoloji xüsusiyyətləri və xəritələri, onların şərhi təqdim olunur. İkinci fəsil dənizin fiziki xassələrinə həsr olunub. Burada dənizin axınları və su dövranları, səth dalğaları, suyun temperaturu, duzluluğu, şəffaflığı, alberdosu və başqa parametrlərin xəritələri və onların şərhləri verilir. Xəzərin əsas problemlərindən olan səviyyə problemi də bu fəsildə əksini tapıb. Üçüncü fəsil Xəzər dənizinin iqlimi və meteorologiyasından bəhs edir. Havanın temperaturu, rütubəti, şəffaflığı, buludluluq, küləyin istiqaməti və sürəti, günəş radiasiyası və istilik büdcənin xəritələri verilib.

Atlas bütün dünyada Xəzər dənizi ilə maraqlanan təsərrüfat işçiləri və elmi tədqiqatçılar üçün maraqlıdır.

**Müdriklər deyib ki...**



*«İnsana əxlaq tərbiyə etmədən onun sadəcə zehnini inkişaf etdirmək cəmiyyətə bəla qazandırmaqdır».*

*Teodor Ruzvelt (1858-1919)*